1 may 2019 №32 (1617) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlət başçısı giriş nitqində 2018-ci ildə prezident seçkilərindən sonra ölkəmizdə islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirib.

Cari ilin birinci rübündə büdcə daxilolmalarının artdığını, bununla da əlavə maliyyə resursunun formalaşdığını deyən dövlət başçısı ilin əvvəlindən ümumi daxili məhsulun, sənaye istehsalının, qeyri-neft sənayesinin, kənd təsərrüfatının, əhalinin gəlirlərinin artdığını, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulduğunu deyib. Qeyd edib ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 25-ci yerə layiq görülüb və 10 ən islahatçı ölkə arasındadır. İlin əvvəlindən böyük həcmli sosial paketin icra edildiyini deyən Prezident İlham Əliyev minimum əməkhaqqının, minimum pensiyaların, məcburi köçkünlərə verilən müavinətlərin, tələbələrin təqaüdlərinin və digər sosial müavinətlərin artdığını bildirib, problemli kreditlərlə bağlı məsələnin və vaxtilə tikilən, lakin istismara qəbul edilməyən binalarla bağlı yaranan problemin həll olunduğunu vurğulayıb.

İclasda Prezidentin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov, kənd təsərrüfatı naziri İnam Kərimov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev görülən işlərlə bağlı məruzə ediblər.

Prezident İlham Əliyev yekun nitqində hazırda iqtisadiyyatın yeni inkişaf strategiyasının hazırlandığını bildirib, ilin sonuna qədər elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorativ tədbirlər, xarici sərmayələrin cəlbi, məcburi köçkünlər və şəhid ailələrinin yeni mənzillərlə təmin olunması ilə bağlı görüləcək işlərdən danışıb. Əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu deyən dövlət başçısı bildirib ki, bu il də sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanılacaq.

## Dünyanın dialoq yolları yenə Bakıda qovuşur

### V Dünya Mədəniyyətlərarası Dialoq Forumu "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" mövzusuna həsr edilib




Mayın 2-də Bakıda V Dünya Mədəniyyətlərarası Dialoq Forumu keçiriləcək. Tədbirin təşkilatçıları Azərbaycan Hökuməti və Mədəniyyət Nazirliyi, tərəfdaşları isə UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və İSESCO-dur. Bakı Konqres Mərkəzində keçiriləcək Forum "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" mövzusuna həsr edilib.

2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən mədəniyyətlərarası dialoqa dair "Bakı Prosesi" ötən müddətdə müxtəlif qitələrdə yaşayan və fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış və hörmət çərçivəsində səmimiyyət və qarşılıqlı hörmətə əsaslanan fikir mübadiləsi üçün pozitiv platformaya çevrilib.

BMT Baş katibinin BMT-nin Baş Assambleyasına ünvanladığı mədəniyyətlərarası və dinlərarası dialoq və sülh mədəniyyəti barədə illik (2017) hesabatında "Bakı Prosesi" çərçivəsində bu günə qədər əldə olunan uğurlarla yanaşı, mədəniyyətlərarası dialoqun təbliği üçün əsas qlobal platforma kimi Dünya Mədəniyyətlərarası Dialoq Forumuna istinad edilib. 2011-ci ildən etibarən ənənəvi olaraq iki ildən bir keçirilən Dialoq Forumu bu dəfə dünyanın 100-dən çox ölkəsinin və 30-dan çox beynəlxalq təşkilatın nümayəndələrini bir araya gətirəcək.

V Dünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insan həmrəyliyini yaratmaq və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə insanlara kömək etmək üçün praktiki strategiya kimi mədəniyyətlərarası dialoqun mühüm rolu öyrəniləcək.

davamı səh. 2-də

## Moskvada Əjdər İbrahimova həsr edilmiş yubiley axşamı

Rusiya paytaxtının Mərkəzi Ədiblər Evindəki Yazıçılar Klubunda görkəmli azərbaycanlı kinorejissor, SSRİ Xalq artisti Əjdər İbrahimovun 100 illiyinə həsr olunmuş "Məhəbbətim mənim, kədərim mənim" adlı yubiley axşamı keçirilib.

səh. 8

## Əzim Əzimzadənin xatirə muzeyi yenidən qapılarını sənətsevərlərin üzünə açıb

Milli təsviri sənətin görkəmli nümayəndəsi, Xalq rəssamı Əzim Əzimzadənin (1880-1943) Bakı şəhərindəki xatirə muzeyi (Dilarə Əliyeva küçəsi 157) təmirdən sonra yenidən qapılarını sənətsevərlərin üzünə açıb. Aprelin 29-da bu münasibətlə mərasim keçirilib.

Xatirə muzeyinin direktoru İradə Əzimzadə qonaqları salamladı və muzeyin fəaliyyəti haqqında məlumat verdi. Bildirdi ki, Əzim Əzimzadənin vaxtilə yaşadığı ev xatirə muzeyi kimi Azərbaycan SSR Nazirlər Sovetinin 14 iyun 1965-ci il tarixli qərarı ilə yaradılıb. 1968-ci ildə fəaliyyətə başlayan mədəniyyət ocağı Bakıda rəssamlıq üzrə ilk ev-muzeylərdən biridir: "Muzey təmirdən sonra yenidən ziyarətçilərini qəbul edir. Mədəniyyətimizi, görkəmli şəxsiyyətlərin yaradıcılıq xəzinəsini gələcək nəslə çatdırmaq bizim borcumuzdur".



davamı səh. 3-də

## "Bölgələrdən bölgələrə" festivalı davam edir

Mədəniyyət Nazirliyinin təşəbbüsü, nazirliyin regional idarələrinin iştirakı ilə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının daha iki tədbiri aprelin 25-də Xaçmazda, aprelin 26-da isə Abşeron rayonunun Xırdalan şəhərində gerçəkləşib.

Xaçmaz şəhərindəki Heydər Əliyev adına parkda nazirliyin regional mədəniyyət idarələri üzrə nümayəndələrin iştirakı ilə keçirilən festival sakinlər tərəfindən böyük coşqu ilə qarşılanıb.



Tədbir iştirakçıları Qusar Dövlət Ləzgi Dram Teatrının "Diyar" nənələr qrupunun təqdimatında cəhrədə yun əyirmək, xalça toxumaq, səhənglə su daşımaq və başqa bu kimi ənənəvi məişət işlərini əks etdirən təqdimatları izləyiblər. Xaçmaz və Şabran xalq teatrlarının hazırladığı ədəbi-bədii kompozisiyalar festivalın zəngin proqramına əlavə rəng qatıb. "Xınayaxdı" folklor kollektivinin ifasında rəqs nümunələri mədəniyyət bayramında iştirak edənlərin zövqünü oxşayıb.

davamı səh. 4-də



## "Günahın o tayında" kim qaldı?..

Artıq 10-cu dəfə paytaxtımızın ev sahibliyi etdiyi Beynəlxalq Rostropoviç Festivalı yenə ruhunun dərinliyində klassik musiqini yaşadan və onu mənəvi qidasına çevirən dinləyici-tamaşaçı kütləsinə əsl bayram yaşatdı. Festival proqramının ən maraqlı sənət təqdimatlarından biri aprelin 25-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində oldu.

Həmin gün teatrsevərlər musiqinin "bədən dili" ilə ilahi hikmətə qovuşduğu əsərə, musiqi, xoreoqrafiya və insan hislərinin unikal ecaz həllini tapdığı balet nümunələrindən birinə tamaşa etdilər. Mübaliğəsiz demək olar ki, bu, sadəcə nümayiş yox, səhnə ilə tamaşaçı zalının harmoniyası idi. Səhnədəkilər nəinki Rusiya, ümumilikdə dünya balet sənətində yeni cığır açan ustad xoreoqrafın yetirmələri idi.

Boris Eyfmanın Balet Teatrının (Sankt-Peterburq) gənc, amma yüksək peşəkar truppası "Günahın o tayında" balet tamaşasını nümayiş etdirirdi.

davamı səh. 5-də

## "Siz tolerantlıq ərazisinə daxil olursunuz"

### 3-cü "IMAGINE" Avro Tolerantlıq Festivalına start verilib

Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramının 10 illik yubileyinə həsr edilən 3-cü "IMAGINE" Avro Tolerantlıq Festivalının açılış mərasimi keçirilib.

Festival Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin, quruma üzv ölkələrin və Argentina, Meksika, Kolumbiya, Moldova, İsrail səfirliklərinin "United Cultures" təşkilatı ilə əməkdaşlığı çərçivəsində təşkil olunub.

Mayın 1-dən 15-nə qədər davam edəcək festivalın məqsədi mədəniyyətlərarası dialoq, müxtəliflik və tolerantlıq dəyərlərini tanıtmaqdır. 3-cü "IMAGINE" Avro Tolerantlıq Festivalı müxtəlif tədbirləri – musiqili tamaşalar, debat və müzakirələr, film nümayişləri, foto və videomüsabiqə, incəsənət sərgilərini özündə birləşdirir.

Avropa İttifaqının Azərbaycan üzrə Nümayəndəliyinin Siyasi, iqtisadi, mətbuat və informasiya şöbəsinin rəhbəri Denis Daniilidis bildirib ki, əvvəlki illərin ənənəsi qorunmaqla, bu il festivalın proqramı daha fərqli və orijinal olacaq. Festivalda tolerantlıq və müxtəliflik mövzusunda 30-dan çox sənədli və bədii film nümayiş olunacaq. Öz filmlərini festival iştirakçılarına təqdim etmək üçün Fransa, Finlandiya, Latviya, Hollandiya və Belçikanın tanınmış rejissorları Bakının qonağıdır. Layihə çərçivəsində finlandiyalı kinorejissor Paavo Vesterberq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində sənədli filmlərin çəkilməsi haqqında tələbələrə və yerli gənc rejissorlara ustad dərsləri keçəcək.

Bu il ilk dəfə olaraq "IMAGINE" Avro Tolerantlıq Festivalı Gəncə şəhərində də keçiriləcək.

Festival Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən dəstəklənir.

Qəzetimizin "Afişa" əlavəsinin növbəti sayı çapdan çıxıb




səh. 4

"Birpərdəli pyeslər" müsabiqəsinin qalibləri mükafatlandırıldı

səh. 2

Ankarada "Aşıq Veysəl ili"nin açılışı keçirilib




səh. 8

# “Vətənimizin hər bir mədəni abidəsinə, tarixinə xoş niyyət bəsləməliyik”

İçərişəhər bütün Azərbaycan üçün, bizim bütün vətəndaşlarımız üçün çox doğma və əziz yerdir. Bakımızın, doğma Bakımızın ürəyidir. Bu, doğrudan da çox dəyərli tarixi və mədəni abidədir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva bu sözləri aprelin 26-da “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunda görülən işlərlə tanış olarkən deyib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan memarlığının və mədəniyyətinin nadir incisi sayılan İçərişəhərin qorunmasına daim diqqət və qayğı ilə yanaşırlar. İçərişəhərin UNESCO-nun Dünya İrs Siyahısına daxil edilməsi Azərbaycan xalqının bəşər mədəniyyətinə töhfələr verdiyini bir daha təsdiqləyir.

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin sədri Əsgər Ələkbərov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya görülən işlərlə bağlı ətraflı məlumat verib. Bildirib ki, qoruq ərazisində mövcud olan tarix və mədəniyyət abidələrinin qorunması, memarlıq-estetik görünüşünün və uzunömürlülüyünün təmin edilməsi üçün daimi olaraq müvafiq tədbirlər görülür. Hazırda Kiçik Qala küçəsində, qala divarları boyunca yerləşən kafe və restoranların yenidən qurulması işləri həyata keçirilir. Təmir-bərpa işləri Qoşa Qala divarlarına heç bir zərər vurmamaqla aparılır və İçərişəhərin, qala divarlarının görünüşünə xələl gətirməyəcək.



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İçərişəhərdə görülən işlər haqqında sosial şəbəkələrdə, informasiya məkanında yayılan yalan və qərəzli xəbərlərlə bağlı bildirib ki, hər insan öz vicdanı və Allah qarşısında cavab verir: “Ona görə mən əminəm ki, pis niyyətlə, təxribatla, nifrət hissi ilə heç vaxt yaxşı bir nəticə əldə etmək mümkün deyil. Vətənimizə, Vətənimizin hər bir mədəni abidəsinə, tarixinə, dininə yalnız və yalnız xoş niyyət, mərhəmət, sevgi bəsləməliyik. Bütün bu hadisələrin gedişatı haqqında məndə məlumat var idi. Amma mən yenə də sahibkarlarla görüşmək istəyirdim. Bir daha əmin olmaq istəyirdim ki, yeni heç bir inşaat yoxdur. Buradakı tarixi və mədəni abidələrə heç bir təhlükə yoxdur. Əksinə, bütün bu addımlar onların qorunmasına yönəlib”.

Mehriban xanım Əliyeva onu da qeyd edib ki, son illər İçərişəhərdə qala divarı üzərində aparılan bütün bərpa işlərinə bu sahədə ən aparıcı ekspertlər cəlb olunub: “Birincisi, əlbəttə, biz İçərişəhərimizi çox qorumalıyıq, çox diqqətli olmalıyıq. İkincisi, İçərişəhərdə yaşayan sakinlərin maraqları nəzərə alınmalıdır. Eyni zamanda, mən əminəm ki, sahibkarlar üçün də bura doğma, əziz və ölkəmizin ən vacib tarixi abidələrindən biridir. Siz də yanaşmalarınızı məhz bu səmtdə qurmalısınız.

Bir də onu qeyd etmək istəyirəm ki, gələcəkdə belə hallarla üzləşməmək üçün biz gərək ictimaiyyətə dolğun, geniş informasiya verək. Hətta İçərişəhərdə hansısa bir bərpa, təmir işinin aparılması nəzərdə tutulubsa, bu işləri başlamamışdan əvvəl biz ictimaiyyətə geniş şəkildə məlumat verməliyik. Mən çox yaxşı başa düşürəm, insanlar narahat olublar. Çünki 1954-cü ildə dağılmış divarın rəsmlərini qəsdən indi qoyub və bugünkü hal kimi təqdim ediblər. Mən yenə də deyirəm, o insanlar haqqında danışmaq istəmirəm. Amma mən narahat olan o biri insanları çox yaxşı başa düşürəm. Belə hallarla, belə yalanlarla üzləşməmək üçün, biz gərək bütün informasiyanı dolğun şəkildə ictimaiyyətə təqdim edək. Ona görə bir daha deyirəm, bir daşa da ziyan dəyməməlidir. İçərişəhərimiz gözəldir, bizim sərvətimizdir, bundan sonra biz onu qoruyub saxlayacağıq, gələcək nəsillərə eyni şəkildə təhvil verəcəyik”.

Birinci vitse-prezident aparılan işlərin yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verib.

## Dünyanın dialoq yolları yenə Bakıda qovuşur

əvvəli səh. 1-də

Forumda iştirak etmək məqsədilə BMT-nin Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Miguel Moratinos, UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Nashif, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yousef Al Othaimeen, İSESCO-nun Baş direktoru Əbdüləziz Osman Əl-Tüveycri, Avropa Şurası Baş katibinin müavini Gabriella Battaini Dragoni ölkəmizə gəlir.

Forumda həmçinin TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Aralıq Dənizi Birliyinin Baş katibi Nasser Kamel, TÜRKPA-nın Baş katibi Altınbek Mamayusupov, TRASECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi Mirça Çiopraqa, İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Hadi Süleymanpur və digər beynəlxalq qurumların rəhbər şəxsləri iştirak edəcək.

Mötəbər tədbirə Qana Respublikasının Xarici İşlər naziri Şirli Botçvey, Uruqvayın Xarici İşlər naziri Rodolfo Nin Novoa, Qambiyanın Xarici İşlər naziri Mamadou Tanqara, Monteneqronun Mədəniyyət naziri Aleksandar Boqdanoviç, Mali Respublikasının Mədəniyyət naziri Ramatulaye Diallo, Əlcəzairin Mədəniyyət naziri Meriem Merdaci, İran İslam Respublikasının Mədəniyyət və İslam əlaqələri üzrə naziri Abuzər İbrahimi Türkman, Qırğızıstanın Mədəniyyət, İnformasiya və Turizm naziri Azamat Zhamankulov, Küveyt Dövlətinin İnformasiya və Gənclərlə iş naziri Mohammad Naser Abdullahi Aljabri, Monteneqronun Daxili İşlər naziri Mevludin Nuhociç, Myanmanın Təhsil naziri Myo Thein Gyi qatılacaqlar.

İki gün davam edəcək Forum çərçivəsində insan həmrəyliyini yaratmaq və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə yerli insanlara kömək etmək üçün (praktiki strategiya kimi) mədəniyyətlərarası dialoqun rolu öyrəniləcək. Bundan başqa, Forumda mədəniyyətlərarası dialoq və insan ləyaqətini təbliğ etməklə inklüziv və davamlı cəmiyyətlərin qurulmasında dövlət, özəl və üçüncü sektoru təmsil edən təşkilatlar üçün ümumi yol xəritəsini hazırlamaq məqsədilə siyasi, iqtisadi, maliyyə, hərbi, humanitar və sosial təşkilatlar arasında sinerji və tərəfdaşlıq formalaşdırmaq üçün beynəlxalq təşkilatların və nazirlərin 2-ci Yüksək səviyyəli görüşü keçiriləcək.

## Florensiya Beynəlxalq Əl İşləri Sərgisi davam edir

İtaliyanın Florensiya şəhərində keçirilən 83-cü Beynəlxalq Əl İşləri Sərgisində Azərbaycanın nümayəndə heyəti iştirak olunur. Festivalda ölkəmizin mədəni sənaye məhsullarının stendi təşkil edilib.



Ölkəmizin xalq dekorativ-tətbiqi və təsviri sənət məhsulları, həmçinin milli-mədəni irsimiz barədə təbliğat materiallarından təşkil olunmuş Azərbaycan stendi ziyarətçilərin böyük marağına səbəb olub. Ziyarətçilərə ölkəmizin ecazkar təbiəti, teatr-tamaşa və konsert zalları, qeyri-maddi mədəni irsimiz, Azərbaycanın qoşulduğu mədəni marşrutlar barədə məlumat verilib.

Festival çərçivəsində digər iştirakçı ölkələrin təmsilçiləri ilə mədəni sənayenin inkişafı, xalq tətbiqi sənət nümunələrinin ixrac potensialı barədə təcrübə mübadiləsi aparılıb.

Ölkəmizin sənətkarlıq məhsullarının özünəməxsusluğu bu sahədə fəaliyyət göstərən şirkətlərin də marağına səbəb olub. Müxtəlif ölkələrin nümayəndələri xalq yaradıcılığı sahəsində əməkdaşlıq arzusunda olduqlarını ifadə edib, media nümayəndələri, bloqerlər Azərbaycan mədəniyyəti barədə yazılar, materiallar hazırlayacaqlarını bildiriblər.

83-cü Florensiya Beynəlxalq Əl İşləri Sərgisi 2 may tarixinədək davam edəcək.

# “Birpərdəli pyeslər” müsabiqəsinin qalibləri mükafatlandırıldı





Aprelin 30-da Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Mədəniyyət Nazirliyi tərəfindən elan olunan “Birpərdəli pyeslər” müsabiqəsi qaliblərinin mükafatlandırma mərasimi keçirildi.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev tədbirdə çıxış edərək son illər ölkəmizdə teatr sahəsinin inkişafına göstərilən dövlət qayğısından danışdı. Vurğuladı ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə teatr sənətinin inkişafı ilə bağlı bir sıra fundamental dövlət sənədləri qəbul olunub. 2006-cı ildə “Teatr və teatr fəaliyyəti haqqında” qanun qəbul edilib. 2007-ci ildə dövlət başçısı “Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında” sərəncam imzalayıb.

Prezidentin sərəncamı ilə təsdiq edilən “Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı” teatr sənətimizin zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunması, Avropa mədəniyyətinə inteqrasiya olunması, teatrların maddi-texniki bazalarının modernləşdirilməsi, teatr binalarının dünya standartlarına uyğun təmiri, informasiya və maliyyə resurslarından səmərəli istifadə edilməsi və repertuarın günün tələblərinə uyğun formalaşdırılması kimi geniş spektri əhatə edir.

Ölkəmizdə hər zaman mədəniyyət xadimlərinə diqqət və qayğı göstərildiyini söyləyən Vaqif Əliyev bu ilin martında Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşünü ölkəmizin ictimai həyatında böyük əks-səda doğuran mühüm hadisələrdən biri kimi qiymətləndirdi. Bildirdi ki, Azərbaycan teatrlarının inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsi haqqında ölkə başçısının müvafiq sərəncamları ilə bütün dövlət teatrlarına vəsait ayrılıb. Eyni zamanda Azərbaycan Dövlət Musiqili və Azərbaycan Dövlət Rus Dram teatrlarına “akademik” statusu verilib.

Mədəniyyət Nazirliyi tərəfindən 2018-ci ilin sentyabrında elan edilən “Birpərdəli pyeslər” müsabiqəsi barədə məlumat verən Vaqif Əliyev qeyd etdi ki, müsabiqənin təşkilində məqsəd xalq teatrlarının repertuarlarını kiçik həcmli tamaşalarla zənginləşdirmək, ədəbi-bədii və mövzu baxımından yüksək dəyərə malik dram əsərlərinin yazılmasına stimul vermək, yeni nəsil dramaturqların yaradıcılığını dəstəkləməkdir. Müsabiqəyə təqdim edilən pyeslərin mövzusu vətənpərvərlik, 2016-cı ilin Aprel döyüşləri, multikulturalizm, mənəvi dəyərlər, dövrümüzün sosial-əxlaqi problemləri, sosial şəbəkələrin cəmiyyətə təsiri, dini radikalizmin fəsadları və digər aktual məsələləri əhatə edib.

Diqqətə çatdırıldı ki, müsabiqəyə təqdim olunmuş 29 pyes tanınmış mədəniyyət xadimlərindən ibarət müsabiqə komissiyası tərəfindən mövzu, bədii və teatral baxımından dəyərləndirilib.

Müsabiqə komissiyasının gəldiyi ümumi nəticəyə müvafiq olaraq I yeri “Payız meşəsində vals” pyesi ilə Firuz Mustafa, II yeri “Ölümə gedən” pyesinə görə Cavid Zeynallı tutub. “Al çobanyastığı ləçəkləri” pyesinə görə Sevinc Nuruqızı III olub. I yer üzrə qalibə 2000 (iki min), II yerin sahibinə 1500 (bir min beş yüz) və III yerin qalibinə isə 1000 (bir min) manat məbləğində pul mükafatı nəzərdə tutulub.

Daha sonra Vaqif Əliyev qaliblərə mükafatları və Mədəniyyət Nazirliyinin diplomlarını təqdim etdi, onlara yeni yaradıcılıq uğurları arzuladı. Qeyd edildi ki, müsabiqədə uğur qazanmış əsərlər toplu şəklində çap olunacaq və xalq teatrlarında səhnələşdiriləcək.

Mərasimdə çıxış edən münsiflər heyətinin üzvü – sənətşünaslıq üzrə fəlsəfə doktoru, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun böyük elmi işçisi Vidadi Qafarlı müsabiqənin müasir teatr prosesi, yeni dram əsərlərinin səhnə həllindəki rəngarənglik baxımından önəmli olduğunu dedi. O, müsabiqənin təşkilinə, yeni yazarlara stimul verdiyinə görə Mədəniyyət Nazirliyinə təşəkkür etdi.

Dövlət Gənc Tamaşaçılar Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Bəhram Osmanov da teatrların repertuar zənginliyinin yeni və maraqlı pyeslərdən asılı olduğunu vurğuladı, gənc qələmlərin axtarışlar etməsini və bu kimi müsabiqələrə qatılmasını vacib saydı.

Qalib müəlliflər də çıxış edərək müsabiqənin təşkilinə görə Mədəniyyət Nazirliyinə minnətdarlıqlarını bildirdilər.

**HƏMİDƏ**

# “Yer ümumi evimizdir”

## Təmsilçilərimiz beynəlxalq festival-müsabiqədə birincilik qazanıb

25-30 aprel tarixində Rusiya Federasiyasının Yekaterinburq şəhərində “Yer ümumi evimizdir” adlı XVII Beynəlxalq Uşaq və Gənclərin Musiqi Yaradıcılığı Festivalı keçirilib.

1982-ci ildən keçirilən festivalın əsas məqsədi musiqinin müxtəlif janrlarında yaradıcılıq müsabiqəsinin həyata keçirilməsi, çoxtərəfli mədəni əlaqələrin gücləndirilməsi, hər bir ölkənin öz milli mədəniyyətini tanıtması, gənclər hərəkatına dəstək verilməsidir.

Builki festivala 10 ölkədən (Azərbaycan, Rusiya, Çexiya, Tunis, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Monqolustan, Çin, Hindistan) 28 musiqi kollektivi qatılıb. Ölkəmizi tədbirdə Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin “Alov” folklor ansamblı təmsil edib. Festival çərçivəsində xoreoqrafiya, xor ifaçılığı, instrumental musiqi və folklor sənəti nominasiyaları üzrə müsabiqə keçirilib.



Müsabiqənin nəticələrinə əsasən, “Alov” folklor ansamblı folklor sənəti nominasiyasında beynəlxalq münsiflər heyətinin qərarı ilə birinci yerə layiq görülüb, kollektivə diplom və kubok təqdim edilib. Təşkilat komitəsinin dəvəti ilə Mədəniyyət Nazirliyinin Elm və tədqiqatlar sektorunun müdiri Vüqar Baxışov münsiflər heyətinin üzvü kimi kollektivlərin qiymətləndirilməsində iştirak edib.

Festival Yekaterinburqun Estrada teatrında qaliblərin mükafatlandırılması və qala-konsertlə başa çatıb.

# Əzim Əzimzadənin xatirə muzeyi yenidən qapılarını sənətsevərlərin üzünə açıb

əvvəli səh. 1-də

Tədbirdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev bildirdi ki, Əzim Əzimzadə Azərbaycan rəssamlıq məktəbində böyük iz qoymuş şəxsiyyətlərdən biridir. XIX əsrin sonu - XX əsrin əvvəlində milli təfəkkürün formalaşmasında "Molla Nəsrəddin" jurnalı ilə birlikdə çalışaraq təsviri sənətimizin inkişafında mühüm xidmətlər göstərib: "Xalq rəssamı fəxri adına layiq görülən ilk sənətkar kimi də Əzim Əzimzadənin adı sənət salnaməmizə yazılıb. Ölkəmizdə karikatura janrının banilərindən sayılan rəssam özünəməxsus yaradıcılıq yolu ilə sənət tariximizdə yaşayır. Onun nəinki bu xatirə muzeyində, həmçinin Azərbaycan Dövlət Teatr Muzeyi, Milli İncəsənət Muzeyi və digər muzeylərimizdə qorunan irsi mədəniyyətimizin dəyərli sərvətləri sırasındadır. Belə şəxsiyyətlərin irsinin qorunması tariximizi, mədəniyyətimizi gələcək nəslə tanıtmaq, təbliğ etmək baxımından böyük əhəmiyyət kəsb edir".

Nazir vurğuladı ki, Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində Azərbaycan inkişaf edir, paytaxt Bakıda abadlıq işləri görülür. Şəhər gözəlləşir, müasirləşir: "Bu inkişaf prosesində tarixi qorumaq və yaşatmaq baxımından mürəkkəb proseslərlə rastlaşırıq. Bəzi köhnə tikililər var ki, onları qorumaq, təmir etmək çətindir. Bunun üçün yeni imkanlar yaradılmalıdır. Bu baxımdan Əzim Əzimzadənin xatirə muzeyi bir nümunədir. Müasir şəkildə təmir edilərək təqdim edilən muzey rəssam haqqında məlumatları gələcək nəsillərə və şəhərimizin qonaqlarına ötürmək imkanı yaradır. Burada həm məkan qorunub, həm də tarix. Arzumuz budur ki, bütün muzeylərin qapıları qonaqların üzünə açıq olsun. Nazirliyin təbeliyində təmirə ehtiyacı olan bütün muzeylər bərpa edilərək ziyarətçilərin ixtiyarına veriləcək".







Əbülfəs Qarayev xatirə muzeyinin ekspozisiyasını yeni düşüncə və yanaşmanın müfəssəl forması kimi səciyyələndirdi: "Binanın birinci mərtəbəsi ziyarətçilərdə xoş təəssürat yaradır, onlar yeni tikilinin içərisində olduqlarını hiss etmirlər. Muzeyin tərtibatı rəssamın yaşadığı mühiti dolğunluqla əks etdirir".

Nazir onu da diqqətə çatdırdı ki, hazırda C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində, C.Cabbarlının Xızıdakı ev-muzeyində təmir işləri gedir. M.Ə.Sabirin xatirə muzeyi isə təmir edilib və hazırda bədii tərtibat işləri həyata keçirilir.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov ölkə başçısının tapşırığı ilə respublikada aparılan quruculuq işləri, eləcə də rayon ərazisində təmir və abadlıq işləri barədə danışdı. Rayon ərazisində çoxlu sayda mədəniyyət ocaqlarının, abidələrin yerləşdiyini diqqətə çatdıran A.Əsgərov bu sırada Ə.Əzimzadənin xatirə muzeyinin əhəmiyyətli yeri olduğunu vurğuladı.

Tədbirdə çıxış edən Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağəali İbrahimov və Xalq rəssamı Arif Hüseynov təsviri sənətimizdə Ə.Əzimzadə məktəbi ilə bağlı fikirlərini bölüşdülər. Vurğulandı ki, 40 illik səmərəli yaradıcılıq fəaliyyəti dövründə rəssam 3 mindən artıq karikatura, plakat, səhnə dekorasiyası və s. janrlarda əsərlər yaradıb. Rəssam M.Ə.Sabirin "Hophopnamə"sinə çəkdiyi illüstrasiyalarla (1914) kitab qrafikası sənətinin də əsasını qoyub. Onun teatr tamaşaları üçün hazırladığı geyim eskizləri və dekorasiyalar Azərbaycan rəssamlığının bu sahədəki inkişafına xüsusi təkan verib.

Çıxışlardan sonra açılışı bildirən rəmzi lent kəsildi və qonaqlar muzeyin təmirdən sonrakı vəziyyəti ilə tanış oldular. Mədəniyyət Nazirliyi tərəfindən muzeyin binası yenidən qurulub, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi ilə eksponatların bərpası həyata keçirilib və ekspozisiyaya yeni bədii tərtibat verilib.

Xatirə muzeyində rəssamın əsərləri, yaşadığı mühiti əks etdirən guşə və fəaliyyətini özündə cəm edən şəxsi fondu qorunur.

**LALƏ**

# İllər sonra vətənində tanınan sənətkar

## İbrahim Səfinin yaradıcılığına həsr edilmiş elmi-praktik konfrans

Aprelin 30-da Azərbaycanda Atatürk Mərkəzində görkəmli fırça ustası İbrahim Səfinin (1898-1983) yaradıcılığına həsr edilmiş elmi-praktik konfrans keçirilib.

Konfrans Naxçıvan Muxtar respublikasının Rəssamlar Birliyi ilə birgə təşkil edilib.

Əvvəlcə qonaqlar İbrahim Səfinin əsərlərindən ibarət sərgiyə baxıblar.

Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov çıxış edərək deyib ki, İbrahim Səfi türk dünyasının unudulmaz rəssamlarından biridir. Yaradıcılığının böyük hissəsi Türkiyə ilə bağlı olan rəssam sovetlər dönəmində bir o qədər tanınmasa da, Türkiyədə ən böyük sənətkarlardan olub. O, ilk dəfə olaraq Atatürkün canlı olaraq portretini çəkib. Atatürkün dünyanın tanınmış rəssamları tərəfindən çəkilmiş çoxlu şəkilləri var, ancaq İbrahim Səfinin çəkdiyi əsər bizim üçün doğmadır.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli rəssam haqqında məlumat verərək qeyd edib ki, İbrahim Səfi 1898-ci ildə Şərur rayonunun Cəlilkənd kəndində anadan olub. Onun mənsub olduğu Səfibəyovlar nəsli Naxçıvan Kəngərlilərinin bir qoludur: "Türkiyədə şöhrət qazanmış İbrahim Səfi ilə Azərbaycan realist rəssamlıq məktəbinin əsasını qoymuş Bəhruz Kəngərli arasında genetik bağlılıq var. Onun bəzi əsərlərində Bəhruz Kəngərli yaradıcılığına bənzəyən yanaşmalar hiss edilir. İbrahim Səfi Qərb rəssamlıq məktəbində impressionistlərin türk əsilli ən görkəmli nümayəndələrindəndir. Biz bu tədbiri keçirməklə həm rəssamı xalqa tanıtmaq missiyasını yerinə yetiririk, həm də Türkiyə-Azərbaycan əlaqələrinə yeni bir səhifə əlavə etmiş oluruq. Düşünürəm ki, İbrahim Səfi yaradıcılığının tədqiq edilib, öyrənilməsinin də əsası bu gün qoyulur".



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Milli Məclisin deputatı, İbrahim Səfi irsinin tədqiqatçısı Ülviyyə Həmzəyevanın "Görkəmli rəssam İbrahim Səfinin həyat və yaradıcılığı" adlı məruzəsi dinlənilib.

Sonra Ülviyyə Həmzəyeva İbrahim Səfinin çəkdiyi "Atatürk" portretini mərkəzin rəhbəri Nizami Cəfərova təqdim edib.

Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev, Xalq rəssamı Ağəali İbrahimov və digər çıxış edənlər İbrahim Səfinin yaradıcılığının daha dərindən öyrənilməsinin vacibliyindən söz açıblar.

# Zaqatala və Şəkidə film təqdimatları

Zaqatala rayon Mədəniyyət Mərkəzində bu torpaqlarda məskunlaşan saxur xalqı haqqında "Salnaməfilm" kinostudiyasının çəkdiyi "Saxurlar" sənədli filminin təqdimat mərasimi keçirilib.

Tədbirin əvvəlində Mədəniyyət Nazirliyinin, rayon İcra Hakimiyyətinin, Şəki Regional Mədəniyyət İdarəsinin nümayəndələri və filmin yaradıcı heyəti Zaqatala və Qax rayonlarında yaşayan saxurların həyat tərzini, məişəti, mətbəxi, adət və ənənələrini əks etdirən sərgi ilə tanış olublar.

Təqdimat mərasimində Şəki Regional Mədəniyyət İdarəsinin rəisi Mirvari Zeynalova, Mədəniyyət Nazirliyinin Kinematoqrafiya şöbəsinin baş məsləhətçisi Almaz Sultanzadə, filmin ssenari müəllifi Qorxmaz Şıxaloğlu və başqaları çıxış edib.



Sonra film nümayiş olunub. Sözügedən filmin çəkilişində iştirak edən zaqatalalı rəssam Əhməd Davudov və onun şagirdləri də filmi izləyiblər.

Filmin nümayişi başa çatdıqdan sonra saxur xalqının musiqi və rəqslərindən ibarət proqram və qədim tambur alətində ifalar təqdim olunub.

Azsaylı xalqın nümayəndəsi Əhməd Davudov çıxış edərək Zaqatalanın tolerantlıq nümunəsi, multikulturalizm Azərbaycan xalqının həyat tərzi olduğundan danışaraq, onlara göstərilən diqqətə görə saxurlar adından ölkə rəhbərliyinə və Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirib.

* * *

Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində isə Mədəniyyət Nazirliyinin sifarişi əsasında "Salnaməfilm" kinostudiyasının Azərbaycanın Milli Qəhrəmanı Mikayıl Cəbrayılov haqqında çəkdiyi "İki əsgər" sənədli filminin təqdimatı olub.

Filmin ssenari müəllifi Qorxmaz Şıxaloğlu və rejissoru Vəli Səidov çıxış edərək ekran əsəri ilə bağlı fikirlərini bölüşüblər.

Sonra filmə baxış olub. Vətənin müdafiəsi uğrunda şəhadətə qovuşan casına döyüşərək canlarını belə əsirgəməyən, nəsillərə örnək olmuş ata və oğulun – Əhmədiyyə və Mikayıl Cəbrayılovların qəhrəmanlıqlarından bəhs edən film tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Filmin təqdimatı başa çatdıqdan sonra ailənin böyük oğlu Cavanşir Cəbrayılov çıxış edərək ekran əsərinin ərsəyə gəlməsində zəhməti olan bütün insanlara ailəsi adından minnətdarlığını bildirib.

# "Xilas edilmiş mədəni sərvətlər"

## Sərgi-seminarlar davam edir

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi tərəfindən regionlardakı muzey, qalereya, Heydər Əliyev mərkəzlərinin əməkdaşları üçün "Xilas edilmiş mədəni sərvətlər" adlı sərgi-seminarlar davam etdirilir.

Aprelin 25-27-də təşkil olunan tədbirdə Şamaxı, İsmayıllı, Ağsu və Qobustan rayonlarının muzey, mərkəz və qalereyalarının əməkdaşları iştirak edib.

Tədbir müddətində bu rayonların muzey toplularına məxsus eksponatların bərpa prosesini əks etdirən fotosərgi keçirilib, eləcə də mərkəzin fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

# Mədəniyyət könüllülərinin sırası genişlənir

Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) tərəfindən təşkil edilən "Mədəniyyət sahəsində könüllülük fəaliyyəti" mövzusunda silsilə seminarların növbətisi aprelin 29-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialında keçirilib.

Filialın direktoru Tünzalə Yusifova qeyd edib ki, könüllülük fəaliyyəti tələbələr tərəfindən böyük maraqla qarşılanır. Onlar universitetdə keçirilən mədəni-kütləvi tədbirlərdə fəal iştirak edirlər.

MEMİM-in direktoru Asif Usubəliyev çıxışında tələbə və gənclərin könüllülər hərəkatının əhəmiyyətindən bəhs edib.

Mərkəzin elmi katibi Cavid Əliyev, şöbə müdiri Nurəddin Babazadə, sektor müdiri Ceyhun Əhmədov mövzu üzrə çıxış ediblər.

Xatırladaq ki, mart ayında Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı və Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi arasında əməkdaşlıq memorandumu imzalanıb və təşkil edilən bu seminar əməkdaşlığın ilk nümunəsidir.

# "Milli mübarizə və qəhrəmanlıq" adlı şeir gecəsi

Dövlət Akademik Milli Dram Teatrında aprelin 29-da keçirilən "Milli mübarizə və qəhrəmanlıq" adlı şeir gecəsi Türkiyə tarixinin şanlı səhifəsi – Atatürkün önderliyi ilə başlanan Qurtuluş savaşının 100 illiyinə həsr edilib.

Tədbir Bakı Yunus Əmrə İnstitutu, Türkiyənin Azərbaycandakı Səfirliyinin Təhsil müşavirliyi, Türkiyənin Bakıdakı təhsil ocaqlarının birgə təşəbbüsü ilə reallaşıb.

Əvvəlcə Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib.

Bakı Yunus Əmrə İnstitutunun direktoru Cihan Özdəmir çıxış edərək tədbirin əhəmiyyətindən söz açıb.





Türkiyə səfirliyinin təhsil müşaviri Mahmud Əyirmədə şeir gecəsinin Türkiyənin milli mübarizə və qəhrəmanlıq tarixi gününün 100-cü ildönümü münasibətilə təşkil edildiyini söyləyib.

Tədbir Türk Dünyası Bakı Atatürk liseyi, Bakı Türk Anadolu liseyi və Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin şagirdləri tərəfindən vətənpərvərlik və qəhrəmanlıq mövzularında şeirlərin təqdim olunması ilə davam edib.

Tədbir çərçivəsində şagirdlərin ifasında milli vətənpərvərlik ruhlu mahnılar da ifa olunub.

№32 (1617)
1 may 2019
www.medeniyyet.az

# Macarıstan Astronavtika Cəmiyyətində general Kərim Kərimov xatırlanıb

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Macarıstanda səfərdə olub. Budapeştdəki Yunus Əmrə İnstitutunda dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ədəbi-musiqili tədbir keçirilib.



Nümayəndə heyəti səfər zamanı Macarıstan Astronavtika Cəmiyyətinin təşkilatçılığı ilə tanınmış macar kosmonavtı Bela Macarinin xatirəsinə həsr olunmuş tədbirə də qatılıb.

Kistarça qəsəbəsində təşkil edilmiş tədbirdə Macarıstan Astronavtika Cəmiyyətinin baş katibi Attila Hirn çıxış edərək, ölkəsində astronavtika elminin inkişafı və kosmonavt Bela Macarinin bu sahədə xidmətlərindən danışıb. Attila Hirn kosmonavtika sahəsində görkəmli alim, mühəndis, general Kərim Kərimov barədə də fikirlərini bölüşüb, onun ötən əsrin 90-cı illərində Macarıstana səfəri zamanı məhz bu xidmətlərinə görə ölkədə böyük hörmət və ehtiramla qarşılandığını bildirib.

Tədbirdə çıxış edən səfir Vilayət Quliyev iki ölkə arasında müxtəlif sahələrdə səmərəli əməkdaşlığın təşəkkül tapmasından məmnunluğunu ifadə edib, məşhur azərbaycanlı alim Kərim Kərimovun Vətənin hüdudlarından kənarda xatırlanmasından qürur duyduğunu vurğulayıb.

Sonda astronavtika elminin inkişafında xidmətləri olmuş şəxslərin xatirəsinin anılması məqsədilə “Səma ağacı”nın dibinə simvolik olaraq torpaq tökülüb. Səfir Vilayət Quliyev Azərbaycandan gətirilmiş bir ovuc torpağı həmyerlimiz Kərim Kərimovun xatirəsinə hörmət əlaməti olaraq “Səma ağacı”nın dibinə səpib.

# “Varlı qadın” beynəlxalq festivalda

Rusiya Federasiyasının Adıgey Respublikasının paytaxtı Maykop şəhərində “Qafqaz təbaşir dairəsi” adlı beynəlxalq teatr festivalı keçirilib.

Şimali Osetiya Dövlət Akademik Teatrı festivala Əməkdar incəsənət xadimi Əli Əmirlinin “Varlı qadın” komediyası ilə qatılıb. Tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Bəhram Osmanovdur.

Bir həftə davam edən festivalda 12 tamaşa nümayiş etdirilib. Şimali Osetiya teatrının aprelin 27-də təqdim etdiyi “Varlı qadın” komediyası tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Qeyd edək ki, adını alman dramaturqu Bertold Brextin eyniadlı əsərindən götürmüş “Qafqaz təbaşir dairəsi” festivalının məqsədi Qafqaz xalqlarının dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsidir.

Artıq üçüncü dəfədir ki, “Varlı qadın” tamaşası beynəlxalq festivallarda xarici ölkə teatrları tərəfindən nümayiş etdirilir. 2008-ci ildə M.Vohidov adına Tacikistan Dövlət Gənclər Teatrı Almatıda keçirilən festivalda, 2012-ci ildə isə A.Salavatov adına Kumık Dövlət Musiqili Dram Teatrı türkdilli teatrların “Tuqanlıq” festivalında “Varlı qadın”la çıxış edib.

# Qonaqpərvərlik sənayesində kadr və xidmət problemləri müzakirə olunub

Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) Mehmanxana və restoran biznesi kafedrasının və Azərbaycan Turizm Assosiasiyasının təşkilatçılığı ilə “Mehmanxana biznesində kadr, servis problemləri və onların həllində ATMU-nun rolu” mövzusunda elmi-praktik seminar-diskussiya təşkil olunub.

Mehmanxana və restoran biznesi kafedrasının müdiri Novruz Quliyevin açılış sözündən sonra çıxış edən ATMU-nun rektoru İlham Mədətov tədbirin gündəliyindəki mövzunun aktuallığını vurğulayıb. Rektor tədris prosesinin səmərəli təşkilində kurrikulumların sənayenin tələbləri ilə uzlaşmasının əhəmiyyətindən danışıb, bir sıra mehmanxana və restoranlarda müştəri xidmətlərinin aşağı səviyyədə olduğunu deyib. Qeyd olunub ki, 2018/2019-cu tədris ilində ATMU-da tələbələrin istehsalat, elmi tədqiqat, elmi-pedaqoji təcrübənin yüksək səviyyədə təşkilinə xüsusi diqqət ayrılır. Bu baxımdan ali təhsil müəssisəsində yeni yaradılan strukturun – “Karyera və kommunikasiya” mərkəzinin xüsusi əhəmiyyət daşıyacağı vurğulanıb.

# Məzarlıqlar da xalqın tarixi irsinin bir hissəsidir

## Avropada Əlamətdar Qəbiristanlıqlar Assosiasiyasının prezidenti ölkəmizdə səfərdədir

Aprelin 29-da Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov V Dünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Avropada Əlamətdar Qəbiristanlıqlar Assosiasiyasının (The Association of Significant Cemeteries in Europe - ASCE) prezidenti Lidiya Pliberşeklə görüşüb.



Dövlət Xidmətinin rəisi Zakir Sultanov qonağa ölkəmizin mədəni irsi, tarixi abidələri haqqında məlumat verib. Bildirib ki, Azərbaycanda mədəni irsin qorunması, bərpası və təbliği məsələləri, o cümlədən qəbiristanlıqların, xiyabanların qorunması daim diqqət mərkəzində saxlanılır. Fəxri xiyaban, Şəhidlər xiyabanı, Quba Soyqırımı Memorial Kompleksi, qədim türk-islam qəbiristanlıqları, alman qəbiristanlıqları və digər bu kimi məkanlar xüsusi diqqətlə qorunur.

Lidiya Pliberşek Qobustan Milli Tarix-Bədii Qoruğu, Fəxri xiyaban və Şəhidlər xiyabanında olduğunu qeyd edərək bildirib ki, burada gördükləri onda ölkəmiz haqqında böyük maraq doğurub. Sloveniyanın Maribor şəhərində yerləşən və müharibə qurbanlarına həsr olunan Dobrava Memorial Park Kompleksi ərazisində Xocalı soyqırımının qurbanlarına həsr olunan xatirə lövhəsinin qurulmasını xatırladan qonaq Azərbaycanla bu sahədə daha sıx əməkdaşlıqda maraqlı olduqlarını deyib.

Qonaq rəhbəri olduğu təşkilat haqqında məlumat verərək bildirib ki, Avropada Əlamətdar Qəbiristanlıqlar Assosiasiyası tarixi və ya bədii əhəmiyyətə malik qəbiristanlıqlara qayğı göstərən dövlət və özəl təşkilatlardan ibarət Avropa şəbəkəsidir. Qlobal xarakterli qeyri-kommersiya təşkilatı olan ASCE-nin əsas məqsədi Avropa qəbiristanlıqlarının insanlığın mədəni irsinin əsas hissəsi kimi təbliğ etməkdir. 2001-ci ildə yaradılan assosiasiya 22 ölkədə 180-dən çox qəbiristanlığı əhatə edən müvafiq təşkilatları özündə birləşdirir.

Lidiya Pliberşek Azərbaycanın Avropada Əlamətdar Qəbiristanlıqlar Assosiasiyası və Avropa Qəbiristanlıqları Marşrutuna üzv olması məqsədilə əməkdaşlıqda maraqlı olduqlarını deyib. O, Azərbaycanda bir neçə qəbiristanlıq və tarixi əhəmiyyət daşıyan məkanın bu quruma üzv olmasının önəmini vurğulayıb.

Görüşdə bu istiqamətdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub. Zakir Sultanov ölkəmizin bu qurumla əlaqələrin inkişafında maraqlı olduğunu və əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirib.

Qeyd edək ki, qonaq ölkəmizə səfəri çərçivəsində Şamaxı, Quba və Qəbələdə bir sıra tarixi məkanları ziyarət edəcək.

# “Bölgələrdən bölgələrə” festivalı davam edir

*əvvəli səh. 1-də*

Heydər Əliyev adına parkda regional mədəniyyət idarələrinin çadır-guşələri qurulub, şəhər və rayonların mədəni zənginliyi, sənətkarlıq irsi və incəsənət nümunələri təqdim olunub.



Festivalın ikinci hissəsində regional idarələr üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış ediblər. Rəngarəng musiqi nömrələri, rəqslər tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

### Bölgələrimizin mədəni irsi Abşeronda nümayiş olundu

“Bölgələrdən bölgələrə” yaradıcılıq festivalının növbəti tədbiri Abşeron rayonunun Xırdalan şəhərində (Sumqayıt Regional Mədəniyyət İdarəsi) keçirildi. Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda təşkil olunan tədbirdə rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova, Mədəniyyət Nazirliyinin nümayəndələri, regional mədəniyyət idarələrinin rəisləri, mədəniyyət işçiləri və ictimaiyyət nümayəndələri iştirak edirdilər.





Tədbir iştirakçıları əvvəlcə Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və 15 regional mədəniyyət idarəsinin nümayiş etdirdiyi əl işləri, dekorativ-tətbiqi sənət, rəsm əsərləri və digər sənətkarlıq nümunələrinə baxdılar, folklor və musiqi qruplarının çıxışlarını dinlədilər.

Sumqayıt Dövlət Rəsm Qalereyasının direktoru Ellada Həsənovanın “Muğam-trio” kompozisiyası və süjetli xalçanın nümayişi, dekorativ-tətbiqi sənət ustası Günel Hüseynovanın 3D formatında “Sumqayıt”, taxta üzərində işlənmiş “İçərişəhər” kompozisiyaları, keçədən əl işləri qonaqların xüsusi marağına səbəb oldu.

Festivalda balaca ziyarətçilərin də maraqları nəzərə alınmışdı. “Günəşim” və “Cırtdan” kukla teatrlarının hazırladıqları tamaşalar, “Dostluq” Mədəniyyət evinin klounada nömrələri və “Qurd adam”, “Şurun-burun”, “Maşa və ayı”nın personajları uşaqların zövqünü oxşadı. Həmçinin festivalda “Nəsimi ili” ilə əlaqədar kitab guşəsi qurulmuşdu.

Zəngilan rayonunun folklor kollektivi, Abşeron rayon Mədəniyyət Mərkəzinin Xalq teatrı, bir neçə musiqi məktəbinin sazçalanlar ansamblı və rəqs kollektivlərinin çıxışı festivala xüsusi rəng qatdı. Fiziki imkanları məhdud incəsənət ustalarının da yaradıcılığına yer verilmişdi. Oymaçı rəssam Asif Qasımovun hazırladığı sənətkarlıq nümunələri qonaqların diqqətini cəlb etdi.

Tədbir daha sonra konsert proqramı ilə davam etdi. Konsertdən öncə “Bölgələrdən bölgələrə” yaradıcılıq festivalı barədə məlumat verildi. Ölkəmizdə mədəniyyət və incəsənətin inkişafına dövlət tərəfindən qayğı göstərildiyi vurğulandı. Bildirildi ki, bu layihənin həyata keçirilməsi yerli sakinlərə, eləcə də bölgələrimizə gələn xarici qonaqlara regionların rəngarəng mədəni həyatı ilə yaxından tanış olmaq fürsəti yaradır.

Yaradıcılıq festivalının ikinci hissəsində hər bir regional idarə üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivlərinin çıxışları, musiqi nömrələri, rəqslər tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Tədbir iştirakçısı İsmayıl Həsənov festivalın insanlarda xoş ovqat yaratdığını qeyd etdi. Bildirdi ki, festival ölkəmizin bütün regionlarını əhatə etməklə mədəni zənginlik, xalq sənətkarlığı irsi və incəsənət nümunələri ilə tanışlığa vəsilə olur.

Xırdalan şəhər sakini Zərifə Ağayeva tədbirə nəvələri ilə gəldiyini dedi: “Burada balacalar üçün nümayiş olunan səhnəciklər, müxtəlif personajlar onların diqqətini cəlb edir. Bu festival həm uşaqların, həm də böyüklərin marağına səbəb olur”.

Qeyd edək ki, Mədəniyyət Nazirliyinin iş planına əsasən respublikamızda ikinci dəfə keçirilən “Bölgələrdən bölgələrə” yaradıcılıq festivalına may ayının sonunda yekun vurulacaq.

**Fariz HÜSEYNOV**

# Qəzetimizin “Afişa” əlavəsinin növbəti sayı çapdan çıxıb

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə hazırlanaraq çap olunan və Bakı şəhərinin mədəniyyət ocaqlarının aylıq repertuarı, tədbir və təqdimatları barədə məlumatları əks etdirən “Mədəniyyət+Afişa” nəşrinin növbəti – may ayı buraxılışı işıq üzü görüb.





“Mədəniyyət” qəzetinin aylıq əlavəsi paytaxtın mədəniyyət ocaqlarında sakinlər, şəhərin qonaqları arasında pulsuz yayılır, həmçinin “ASAN Xidmət”in dəstəyi ilə vətəndaşlara təqdim edilir. Nəşrin məqsədi ictimaiyyəti, sənətsevərləri paytaxtın mədəniyyət və incəsənət məkanlarının fəaliyyəti barədə məlumatlandırmaq, əhalinin mədəni istirahətinin dolğun təşkili üçün bu müəssisələrin işinə informasiya dəstəyi verməkdir.

Nəşr aprel sayından etibarən oxuculara xalqımızın zəngin ədəbi xəzinəsinin incilərini təqdim etmək, mütaliəyə marağı təşviq etmək yönündə də öz töhfəsini verməkdədir. 650 illiyi ölkəmizdə və onun hüdudlarından kənarda geniş şəkildə qeyd olunan böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin söz dünyasına səyahət nəşrin may buraxılışında da davam etdirilir. Ədəbiyyatımızın dəyərli səhifələrinə yetişməkdə olan nəslin, o cümlədən tələbə və gənclərin marağını daha da artırmaq xüsusi önəm kəsb edir. Bu məqsədlə “Nəsimi ili”nə töhfə olaraq aprel ayında “Mədəniyyət+Afişa”nın Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Filologiya fakültəsində təqdimatı keçirilmiş, nəşrin nüsxələri universitetin digər fakültələrinin tələbələri arasında yayılaraq maraqla qarşılanmışdı. Qəzetin təşəbbüsünü təqdir edən ADPU rəhbərliyinin dəstəyi ilə “Afişa” əlavəsinin yeni çapdan çıxan may buraxılışı da tədris ocağında tələbələrə təqdim edilir.

Bundan əlavə, nəşrin yeni sayını M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxucuları da əldə edə bilərlər.

“Mədəniyyət” qəzetinin “Afişa” əlavəsinin yeni sayı 30 aprel tarixindən paytaxtdakı 1 və 3 saylı “ASAN Xidmət” mərkəzlərində, eləcə də Bakı şəhərindəki teatr-konsert müəssisələrində vətəndaşlara, sənətsevərlərə təqdim olunur.

Qeyd edək ki, nəşrin may buraxılışında ay ərzində Akademik Opera və Balet, Akademik Milli Dram, Akademik Musiqili, Akademik Rus Dram, Gənc Tamaşaçılar, Kukla, Yuğ, Pantomima teatrlarında göstəriləcək tamaşalar, Heydər Əliyev Sarayı, Azərbaycan Dövlət Akademik Filarmoniyası, filarmoniyanın Kamera və orqan musiqisi zalı, Beynəlxalq Muğam Mərkəzi, Dövlət Mahnı Teatrında təqdim olunacaq konsertlər, eləcə də Nizami Kino Mərkəzində böyük ekrana çıxacaq yeni filmlər, qalereya və sənət mərkəzlərindəki sərgilər barədə ətraflı məlumat almaq mümkündür. Nəşrdə teatrlardakı tamaşaların nümayiş günü və saatı ilə bərabər, ayrı-ayrı səhnə əsərlərinin mövzusu, yaradıcı heyəti barədə qısa yazılar, sərgilər, konsertlər, filmlər barədə anons-informasiyalar da dərc olunub.

# Təzadlara bürünən tamlıq

## X Beynəlxalq Rostropoviç Festivalının son akkordları





Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Mstislav Rostropoviç Fondunun (Rusiya) təşkilatçılığı ilə gerçəkləşən X Beynəlxalq Rostropoviç Festivalının sonuncu konserti aprelin 27-də Heydər Əliyev Sarayında keçirildi. Konsertdə dirijor Tomas Hefelenin idarəçiliyi ilə "MünchenKlang" orkestri (Almaniya) və xoru çıxış etdi.

Musiqi gecəsində mədəniyyət naziri Əbülfəs Qarayev, mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak edirdi.

Konsertin birinci hissəsində görkəmli Avstriya bəstəkarı Frans Şubertin "Tamamlanmamış" simfoniyası bu dəfə fərqli yanaşmada təqdim edildi. Xor və orkestrdən ibarət çoxistiqamətli qrup kimi tanınan kollektivin repertuarında müxtəlif irihəcmli klassik musiqi əsərləri yer alır.

Dünyanın bir çox böyük səhnələrində çıxış edən orkestr Heydər Əliyev Sarayında nəfəs kəsən bir sakitlik fonunda musiqinin həzin notlarını bütün saraya səpmək əzmini nümayiş etdirdi. Zalı dolduran tamaşaçıların diqqəti orkestrin ifasına hakim kəsilmişdi. Bu diqqət o dərəcədə yüksək idi ki, dinləyicilər sanki F.Şubertin 1822-ci ildə yazdığı məşhur əsərin yarımçıq qalma səbəblərinin axtarışına çıxmışdılar. Simfoniyanın cazibəsində duyğu və düşüncələr iki hissədən ibarət olan əsərin təzadlara rəğmən bir-birini mükəmməl tamamlamasına şahidlik edirdi. Musiqi öz cazibəsi ilə dünyanın iki üzünü - qaranlıq və işığı dinləyicilərin ruhuna hopdururdu.

Əsərin dramatik xarakterli sonluğu da adının əksini (bəlkə də tamamlanmış?) düşünməyə əsas verirdi. Qəmgin bir fonda özünəməxsus epiqrafla başlayan əsərdə bir-birini əvəzləyən qoboy, skripka, klarnetin düşündürücü melodiyası sona doğru parlaq, vals yönlü bir əhval yaradırdı. Orkestr özünü Bakı səhnəsində təsdiq edir. Budur, son və sürəkli alqışlar...

* * *

Konsertin ikinci hissəsində isə fransız bəstəkarı Qabriel Forenin "Rekviyem" op.48 əsəri təqdim edildi. Bu dəfə 7 hissəli əsəri ifa etmək üçün səhnəyə "MünchenKlang" orkestri ilə bərabər, xor və solistlər – Anna Karmazin (soprano) və Lüdviq Mittelhammer (bariton) də çıxır.

Q.Forenin "Rekviyem"i ölüm deyil, inam və sülh aşılayan əsərlərdəndir. Musiqişünasların fikrincə, bəstəkar bu əsərində bütün xalqların və zamanların arzu etdiyi yüksək fəlsəfəni nümayiş etdirmək arzusunda olub. Oğlanların xoru ilə başlayan əsərə daha sonra qadın xorunun qoşulması, soprano və baritonun parçalanmış bir ruha nəğmə oxuması istər-istəməz insanı düşüncələrə qərq edirdi. Fraqmentlərin fəlsəfi əhval-ruhiyyəsi yüksələn dalğalar üzrə hərəkət edir, tədricən həcmini və tempini azaldırdı. Bu məqamda güclü fəryadların (xorun) arxasında diqqət mərkəzində olmağa çalışan bir ruhun təzahürü baş verir. Bəstəkar ölümün qorxusunu deyil, sanki mükəmməl və xoşbəxt bir dünyanı təsvir edir...

Fransız bəstəkarın dərin, incə və ürəyəyatımlı notları X Beynəlxalq Rostropoviç Festivalının final sədalarına çevrilir. "MünchenKlang" orkestrinin peşəkar çıxışı ilə final notları insanları bir daha gələcəyə, sülhə inam və mədəniyyətlərin dialoquna səsləyir. Bakı tamaşaçısının orkestrin çıxışından aldığı zövqün qarşılığı isə salondan qopan alqış sədaları ilə təsdiqini tapır...

Aprelin 22-dən 27-dək davam edən X Beynəlxalq Rostropoviç Festivalı rəngarəng konsert proqramları ilə klassik musiqi həvəskarlarının görüşünə gəldi. Festivalda Rusiya, Fransa, İsveçrə, İspaniya və digər ölkələrdən dünya şöhrətli musiqiçilər və kollektivlər iştirak etdi. Hər festival bir bayramdır anlamında növbəti festivalları izləmək arzusu ilə

**Lalə AZƏRİ**

# "Günahın o tayında" kim qaldı?...



*əvvəli səh. 1-də*

Müəllifi və xoreoqrafı Boris Eyfman olan səhnə əsəri Fyodor Dostoyevskinin "Karamazov qardaşları" romanının motivləri əsasında ərsəyə gəlib. Sergey Raxmaninov, Rixard Vaqner və Modest Musorqskinin musiqiləri əsasında həllini tapan tamaşanın dekorasiya və geyim üzrə rəssamı Vyaçeslav Okunevdir.

Boris Eyfmanın teatrı 1977-ci ildə yaradılıb. Onun əsas hədəfi kollektivi bir növ təcrübi laboratoriyaya, tək xoreoqraflı balet teatrına çevirmək idi. Eyfmanın səhnələşdirdiyi tamaşaların məzmun və musiqi seçiminə yenilikçi yanaşması və cəsarətli "bədən dili" ona "xoreoqrafiyanın dissidenti" ünvanını qazandırıb. Bu gün dünyanın ən aparıcı balet teatrları ilə müqayisədə geniş və həm də müxtəlif tamaşaçı auditoriyası ilə öyünən Eyfman teatrının tamaşaları heyranlıqla izlənməkdədir.

Dostoyevski yaradıcılığının xülasəsi, nəhəng zəkasının həyatı boyu apardığı fəlsəfi axtarışının kulminasiya nöqtəsi kimi xarakterizə olunan "Karamazov qardaşları" əsasında hazırlanan "Günahın o tayında" daim çağdaş olan insan problemlərinin musiqi və bədən dili ilə mükəmməl ifadəsidir. 2013-cü ildə səhnəyə qoyulan və Rusiyadan kənarda da dəfələrlə oynanılan balet tamaşaçıya bir aydın həqiqət pıçıldayır: sən ruhunun əsiri olduqdan sonra heç bir inqilab sənə azadlıq bəxş etməz...

Balet Dostoyevskinin araşdırdığı dağıdıcı ehtirasın dözülməz yükü və şərin yayğınlığı kimi şüuru zəbt edən məqamların xoreoqrafik həllini nümayiş etdirir. Tamaşa Karamazovların mənəvi tənəzzülünün əsaslarını aşkar etmək və Tanrı ilə şeytanın mübarizə meydanı olan insan qəlbinin sirrini izhara cəhddir. Elə buna görə də biz bu ikipərdəli baletdə əsərdəki təsvirlərdən çox daxili ziddiyyətlərə əsir düşmüş qəhrəmanların mənəvi dünyalarının, hislərinin alt qatındakı məqamların xoreoqrafik təsvirini görürük.



Balet müəllifi birinci pərdədə tamaşaçını əsərin əsas ideyasına – "Tanrının olmadığı yerdə hər şey qanunauyğundur" fəlsəfəsinə uyarlılığa səsləyir. Bir neçə taktdan sonra, aralarındakı fikir uçurumuna baxmayaraq, Dmitri, İvan və Alyoşa Karamazov arasındakı görünməz bağları duya bilirik. Axı onları ataları Fyodor Karamazovun (İqor Polyakov) günahkar qanı birləşdirir. Ona görə zavallı Alyoşanın (Daniel Rubin) rahibi də bu ehtiraslar düyününü açmaqda acizdir. Alyoşa atasının və Dmitrinin (Oleq Qabısşev) Qruşenka (Lyubov Andreyeva) üstündə apardığı amansız rəqabətin, hər kəsi şəhvət günahına batırmağa hazır atasının saysız sərxoş gecələrinin şahididir.

Ard-arda baş verən qalmaqallar bəzən sülh anları ilə əvəz olunur. Bu zaman qardaşların qəlbi analarının güclü obrazı ilə işıqlanır. Lakin sonra yenidən qardaşlar arasında düşmənçilik daha da güclənir. Alyoşa nəinki kömək edir, əksinə, getdikcə ailəsinin əsarətində çapaladığını hiss edir. İvan Karamazov (Oleq Markov) bəzən ona daha inamlı təsir bağışlasa da, vəhşi arzular bütün dəyərlərin önünü qılınclayır.

Günahkarlar çarpışması ölümlə bitir və atanın qətlində oğul günahlandırılır.

Olduqca gərgin, dərin psixoloji məqamlarla yüklü ilk pərdədə ümumi ağırlığı yüngülləşdirən kazino, qutsal ruhun xilası kimi kilsə, kütləvi səhnələrlə ümumi konsepsiyaya xidmət edən keçid rəqslər mükəmməl idi. Xüsusən hər kütləvi səhnədə əsas qəhrəmanlardan əlavə 20 artisti hərəkət etdirən və onların hər birinə kiçik qruplar şəklində tapşırıqlar verən quruluşçunun yer bölgüsü, musiqi məqamlarına uyğun dalğavarı gəzişməsi də qüsursuz alınmışdı.

Tamaşaçı bu səhnəyə hakimliyi ikinci pərdədə daha aydın sezdi. Çünki İvan və Alyoşa mövcudluğun mahiyyəti, insan qəlbi haqqında durmadan mübahisə edirlər. Burada ilahi hikmət, insanın daxili azadlığı, onu qazanmaq üçün verəcəyin qurbanlar – ümumilikdə mənəvi qatdakı əsas məqamları bədən və musiqi dili ilə ustalıqla çatdırdılar.

Balet müəllifi istifadə etdiyi üç bəstəkarın – tam fərqli sənət, yolu olan musiqi yazarının bir-birinə zidd, aşkar əks axınlı musiqilərinin xoreoqrafik həllini verərkən çox yəqin ki, bir detal – hərəkətin hakimiyyətində musiqinin onsuz da bənzərsiz olması məqamı üzərində dayanıb. Yəqin elə bu əsəri "Günahın o tayında" qılan da, çirkab dolu həqiqətləri bu qədər zərif süzərək izah edən də haqlı idi...

**Həmidə NİZAMİQIZI**

# Kinematoqrafiyanın inkişafı ilə bağlı beynəlxalq təcrübə öyrənilir

Ölkə Prezidentinin 2019-cu il 1 mart tarixli "Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamının icrası ilə əlaqədar yaradılmış İşçi qrup çalışmaları davam etdirir.

Sərəncamda Mədəniyyət Nazirliyinə, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının və digər aidiyyəti qurumların təkliflərini nəzərə almaqla "Azərbaycan kinematoqrafiyasının inkişaf Konsepsiyası" layihəsini hazırlamaq tapşırılıb. İşçi qrupun üzvləri – Mədəniyyət Nazirliyi Aparat rəhbərinin müavini – Hüquq və daxili nəzarət şöbəsinin müdiri Namiq Qulamov, Kinematoqrafiya şöbəsinin sektor müdiri Aydın Hüseynov, "Azərbaycanfilm" kinostudiyasının direktor müavini Azər Quliyev və "Ultra production" şirkətinin rəhbəri Pərviz Məmmədov beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə bu dəfə Gürcüstanda səfərdə olub.

Səfər zamanı Gürcüstanın kinematoqrafiya sənayesinin iştirakçıları ilə görüşlər keçirilib, bu sahədə olan vergi, gömrük və digər imtiyazlarla bağlı təcrübələr təhlil edilib.



Qeyd edək ki, indiyədək təşkil edilən müzakirələrdə "Azərbaycanfilm", "Narimanfilm", "Salnaməfilm", Bakı Media Mərkəzi, "Ultra production", Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, "Sinema" Gənc Kinematoqrafçılar Mərkəzi və s. dövlət və özəl kino müəssisələrinin, bu sahədə fəaliyyət göstərən ictimai təşkilatların, eləcə də müstəqil kino mütəxəssislərinin təklifləri dinlənilib, film sənayesinin yenidən qurulması, bu sahənin inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Konsertmeyster ustalığı üzrə müsabiqəyə yekun vurulub

Xəbər verdiyimiz kimi, Bakı Xoreoqrafiya Akademiyası Təhsil Kompleksində (BXA) akademiyanın 90 illik yubileyinə həsr olunmuş konsertmeyster ustalığı üzrə I respublika müsabiqəsi keçirilib.



İki gün davam edən sənət yarışmasına Azərbaycanın müxtəlif bölgələrindən 50-yə yaxın gənc ifaçı qatılıb. İştirakçıların çıxışlarını Bakı Musiqi Akademiyasının tədris işləri üzrə prorektoru, professor Nərminə Quliyeva (sədr), BXA-nın bədii rəhbəri, Xalq artisti Kamilla Hüseynova, xarici əlaqələr üzrə prorektoru, Xalq artisti Təranə Muradova, Baletmeyster sənəti kafedrasının müdiri, professor Lyudmila Həsənova, Bakı Musiqi Akademiyasının Konsertmeyster ustalığı kafedrasının müdiri, professor Leyla Abbasquliyeva, Əməkdar müəllim, professor Gülnarə Acalovanın yer aldığı münsiflər heyəti qiymətləndirib.

Münsiflərin qiymətləndirməsi nəticəsində I yerə Nərmin İbrahimova, Tutu Məmmədli, Ülviyyə Dadaşova, Rəna Zəkiyeva, II yerə Mənzər Arzumanzadə, Arzu Hüseynova, Aydan Cəfərova, Cəmalə Abdinzadə, III yerə Adilə İbrahimli, Səma Xəlilzadə, Simuzər Səmədova, Dinarə Rəhimova, Elnur Cəfərli layiq görülüb.

Qaliblərə diplomlar, müsabiqə iştirakçılarına isə sertifikatlar təqdim edilib.

# Sumqayıt teatrında yeni tamaşalar

Sumqayıt Dövlət Dram Teatrında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Cəlil Məmmədquluzadənin 150, Cəfər Cabbarlının 120 illik yubileyləri münasibətilə iki tamaşa hazırlanacaq.

Teatrın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov bildirib ki, Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları", Cəfər Cabbarlının "Aydın" əsərləri səhnəyə qoyulacaq.

"Danabaş kəndinin əhvalatları"na baş rejissor özü quruluş verəcək. Cəfər Cabbarlının "Aydın" pyesi isə Xalq artisti, rejissor Vaqif Əsədovun quruluşunda hazırlanacaq. O, həmçinin məşqləri davam edən Əli Əmirlinin "Sevgilim Sumqayıt" tamaşasının iyunda təhvil veriləcəyini bildirib.

# Lənkəran teatrında "Şənbə axşamı"



Lənkəran Dövlət Dram Teatrında Qırğızıstanın Xalq yazıçısı Mar Bayciyevin "Şənbə axşamı" əsəri əsasında hazırlanan eyniadlı tamaşanın premyerası olub.

Səhnə əsərində hadisələr bizim günlərdə cərəyan edir. Kənd məktəbinin müəllimi Kuruçbəyin Moskvada ali məktəbdə təhsil alan oğlu Esen evə gəlin gətirir. Xeyirdua almaqdan ötrü Kuruçbəy arvadı ilə birlikdə təzə qohumlarının evinə gedir. Burada onlar gözlənilməz vəziyyətlə üzləşirlər. Belə ki, Aselin anası Kukuş Kuruçbəydən başlıq tələb edir. Toy çoxlu sayda qonaqların iştirakı ilə təmtəraqlı keçməli, orada qohum-əqrəbaya da bahalı hədiyyələr verilməlidir. Bəs bütün bunlar üçün pulu haradan tapmalı? Kuruçbəyin oğlu Esen atasına avtomobilini satmağı təklif edir.

Kuruçbəy müharibə əlili kimi ona bağışlanan maşını satacaqsa, bəs sonra necə yaşayacaq? Əgər bu təklifdən imtina etsə, onda toy baş tutmayacaq, halbuki toy şənbə axşamına təyin olunub...

Böyük maraqla izlənilən tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Oruc Qurbanov, quruluşçu rəssamı Məzaim Qurbanov, musiqi tərtibatçısı Miranda Qurbanovadır. Rolları Xalq artisti Qabil Quliyev, əməkdar artistlər Zemfira Nəcəfova və Sucəddin Mirzəyev, aktyorlar Şahrud Mehdiyeva, Qızılgül Quliyeva, Sayad Əliyev, Təranə Fərəcova ifa ediblər.

# On bir ayın sultanı

## Müqəddəs Ramazan ayı mayın 6-da başlayır

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası və Elmi-Dini Şurası mübarək Ramazan ayının başlanması ilə əlaqədar fətva verib.



Bildirilir ki, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Şamaxı Astrofizika Rəsədxanasının 2019-cu il üzrə hesablamalarına görə, ölkə ərazimizin üfüqünə uyğun olaraq Ramazan ayının 1-i Miladi tarixlə mayın 6-na təsadüf edir. Ay göründüyü andan etibarən Ramazani-şərif başlayır və niyyət gecəsi mayın 5-dən 6-na keçən gecəyə düşür.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şurası ilahi rəhmət və bərəkət qapılarının açıldığı müqəddəs Ramazan ayının başlanması münasibətilə xalqımızı və dünya müsəlmanlarını təbrik edir, Allah-Təaladan dua və ibadətlərimizin qəbul olunmasını diləyir.

İnsanların düşünüb ibrət almaları, Haqq yoluna hidayət olunmaları üçün göndərilən Qurani-Kərim Ramazan ayının mübarək Qədr gecəsində nazil olub. Qadir Allah "Bəqərə" surəsinin 183-cü ayəsində Ramazanda oruc tutmağın müsəlmanlara vacib olduğunu bəyan edərək belə buyurub: "Ey iman gətirənlər, Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) pis əməllərdən çəkinəsiniz!"

Oruc insanı səbrə, nəfsi tərbiyə etməyə, paklığa, mərhəmət və xeyirxahlığa, habelə ehtiyac sahiblərinin halını anlamağa təşviq edən bir ibadətdir. İlahi məğfirətin bol olduğu Ramazanda Qurani-Kərimi oxuyub mənasını dərk etməyə çalışmaq, qohum-qonşuya baş çəkmək, əbədi aləmə köç edənlərin ruhunu yad etmək, insanların sevinc və qəminə şərik olmaqla cəmiyyətdə dostluq və qardaşlığı təbliğ etmək dinimizdə böyük savablardan hesab olunur.

QMİ bu il də AMEA Şamaxı Astrofizika Rəsədxanası ilə birgə Ramazanın başlanğıcı, bu ayın namaz vaxtları və gündəlik duaları, eləcə də bayram tarixini müəyyənləşdirən xüsusi təqvim tərtib edib. Qazılar Şurası və Elmi-Dini Şura bəyan edir ki, dindarlarımız başqa mənbələrdən əldə edilən, məzhəblərarası təfriqə və vaxt ayrı-seçkiliyi yaradan təqvimlərdən heç bir vəchlə istifadə etməsinlər.

Ramazan ayı iyunun 4-dək davam edəcək. 5-6 iyun Azərbaycanda Ramazan bayramıdır.

# "Çesta laski" – "Sevgi yolu"

## Nizami Gəncəvinin "Yeddi gözəl"indən seçmələr slovak dilində

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərinin tərcümə olunduğu dünya dillərinin sırasına daha biri əlavə edilib. İndiyədək Nizaminin "Xəmsə"sinin bədii gözəlliklərini çex oxucularına çatdıran çoxlu tərcümələr olsa da, slovak dilində şairin əsərləri geniş həcmdə oxuculara təqdim edilməmişdi.



Bratislavada Nizami Gəncəvinin "Yeddi gözəl" məsnəvisindən seçmə parçalar slovak dilinə tərcümədə nəşr edilib. Yuray Şramkonun nəfis tərtibatında Slovakiyanın "İkar" nəşr evi tərəfindən buraxılmış kitaba şairin əsərlərinə Orta əsrlərdə çəkilmiş və Bakıda Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində qorunan miniatürlər də daxil edilib. Nəşrin təşəbbüskarı və icraçıları Slovakiyanın Danubius Universiteti, Azərbaycanın Slovakiyadakı fəxri konsulluğu və AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyidir. Nizaminin əbədiyaşar poeziyasını slovak dilinə Lubomir Feldek tərcümə edib.

"Çesta laski" – "Sevgi yolu" adı altında işıq üzü görən kitab, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynovun yazdığı "Nizami Gəncəvinin yeni dönüşü" adlı müqəddimə ilə başlanır. Ön sözdə deyilir ki, bəşəriyyətin müstəsna övladlarından olan dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bütün əsərlərini keçmiş haqqında yazsa da, daim gələcəyə baxıb, gələcək nəsillər üçün yaradıb. O özünün də, sözünün də uzun zamanlar boyu yaşayacağına inanır, onu görə də belə yazırdı:

*Yüz il sonra sorsan bəs o hardadır,*
*Hər beyti söyləyər: "Burda, burdadır!".*

Nizami Gəncəvi slovak dilində danışmağa başlayan "Yeddi gözəl"i ilə bir daha nümayiş etdirir ki, o, lap çoxdan dünya vətəndaşıdır, dünya şairidir. Rafael Hüseynov bu qəbil tərcümə və nəşrlərin xüsusi əhəmiyyətini vurğulayır və dahi şairin digər məsnəvilərinin də slovak dilinə çevrilməsi istiqamətində səylərin davam etdirilməsini arzulayaraq bildirir ki, yeqin Nizami sözünün hikmətini hiss edən slovaklar ustad şairin duyğu və düşüncə xəzinəsinin digər inciləri ilə tanış olmaq istəyəcəklər.

Akademik Rafael Hüseynov Nizami Gəncəvinin "Mən bunu söylədim, getdim, hekayət qaldı" misrasını iqtibas gətirərək ön sözünü belə yekunlaşdırır: "Onun yaratdığı hekayətlər sadəcə bir abidə kimi qalmayıb, həm də yaşayır, nəfəs alır, ürəyi döyünür, yeni-yeni pərəstişkarlar qazanır və yaşadıqca da onları səyləyib getmiş Nizamini geri qaytarır, yeni zamanlar içində yaşadır. Bu əbədi missiyanı yerinə yetirmək üçün Nizami hekayətləri indi Slovakiyaya gəlib, Nizamini burada da yaşatmaq və sevdirmək üçün gəlib!"

Nizami Gəncəvinin slovak dilində nəşr edilmiş kitabının Bratislavada təqdimatının keçirilməsi nəzərdə tutulur.

# Milli musiqimizin cəfakeş tədqiqatçısı

Azərbaycan musiqişünaslıq elminin inkişafında mühüm rol oynayan alimlər arasında Xalq artisti, professor Ramiz Zöhrabovun özünəməxsus yeri var. O, ömrünü muğam sənətinin elmi əsaslarla öyrənilməsi və təbliğinə həsr edib. Bu il mərhum musiqişünasın anadan olmasının 80 illiyidir.



Ramiz Fərzulla oğlu Zöhrabov 2 may 1939-cu ildə Bakıda anadan olub. 1958-ci ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasi (indiki Bakı Musiqi Akademiyası) nəzdindəki Orta ixtisas musiqi məktəbini bitirir. Konservatoriyanın İfaçılıq fakültəsinin simli alətlər şöbəsində təhsilini davam etdirir, 1965-ci ildə musiqişünaslıq ixtisası üzrə ali təhsilini başa vurur. Həmin il Gəncə şəhərindəki Q.Hüseynli adına Orta ixtisas musiqi məktəbində musiqi tarixi və nəzəriyyəsi üzrə müəllim kimi əmək fəaliyyətinə başlayır. Bir il sonra Bakıya dönür və Azərbaycan Dövlət Filarmoniyasında xalq musiqisi üzrə redaktor vəzifəsində çalışır.

R.Zöhrabov 1969-cu ildən Bakı Musiqi Akademiyasında Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasında fəaliyyət göstərib. 1990-2012-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqının katibi olub. 1974-cü ildə sənətşünaslıq namizədi, 1994-cü ildə sənətşünaslıq doktoru elmi dərəcəsi alıb.

Alim gərgin yaradıcılıq axtarışlarının nəticəsi olaraq şifahi ənənəli Azərbaycan professional musiqi janrlarının nəzəri problemlərinə, Azərbaycan bəstəkarlarının yaradıcılığına dair 20 kitabın, 350 elmi-publisistik məqalənin, eyni zamanda bir sıra musiqi əsərlərinin müəllifidir. 1983-cü ildə Moskvada, 1991-ci ildə Təbrizdə nəşr edilən "Azərbaycan təsnifləri", "Azərbaycan zərbi-muğamları", "Muğam", "Bəstəkarlarımızın portreti" kitabları musiqi ictimaiyyətinin diqqətini cəlb edib. Onun "Azərbaycan modal musiqisi", "Çahargah" muğamının nəzəri əsasları" kitabları da Azərbaycan musiqişünaslıq elminin diqqətəlayiq nümunələrindəndir. R.Zöhrabov "Azərbaycan musiqi ədəbiyyatı", "Şifahi ənənəli Azərbaycan professional musiqisi" adlı dərsliklərin də müəllifidir.

Musiqi yaradıcılığı ilə də məşğul olan R.Zöhrabov xalq çalğı alətləri orkestri üçün "Bayram lövhələri", "Uşaq səhnələri", "Ərdəbil lövhələri" süitaları, instrumental pyeslərini yazıb. Müəllifin müxtəlif mahnıları da məşhur müğənnilər, uşaq xoru və solistlər tərəfindən maraqla ifa olunub.

R.Zöhrabovun müəllifi və aparıcısı olduğu "Bəstəkarlarımızın portreti", "Sənətə həsr olunmuş ömür", "Poeziya və musiqi", "Romans axşamı", xüsusilə "Xalq musiqisi inciləri" silsiləsindən "Muğam sənəti haqqında", muğam dəsgahlarına həsr edilən verilişlər bu gün də musiqisevərlərin yaddaşındadır. O, həmçinin xanəndələrin ifasında yüz təsnifi, 9 zərbi-muğamı ansambl ifasında nota köçürüb.

Sənətkar muğam sənətinin təbliğində də mühüm rol oynayıb. Heydər Əliyev Fondu tərəfindən keçirilən muğam televiziya müsabiqələrinin münsiflər heyətinin üzvü kimi fəaliyyət göstərib. Müsabiqə iştirakçılarına və tamaşaçılara muğam sənətinin incəlikləri haqda məlumat verib. Alim Heydər Əliyev Fondunun muğam sənəti ilə bağlı layihələrində yaxından iştirak edib.

R.Zöhrabov Təhsil Nazirliyi Elmi-Metodiki Şurası İncəsənət və musiqişünaslıq bölməsinin sədri, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu (hazırda Təhsil İnstitutu) Elmi şurasının, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri QSC-nin Bədii şurasının üzvü kimi çox geniş ictimai fəaliyyət göstərərək musiqi mədəniyyətimizin inkişafı naminə böyük səylə çalışıb.

Musiqi mədəniyyətimizin öyrənilməsi və təbliğinə mühüm töhfələr verən sənətkar Xalq artisti fəxri adına, "Şöhrət" ordeni və "Humay" milli mükafatına layiq görülüb. Ramiz Zöhrabov 23 aprel 2017-ci ildə vəfat edib.

**Savalan FƏRƏCOV**

# "Film və müəlliflik hüququ: imkanlar və çətinliklər"

Çin Xalq Respublikasının paytaxtı Pekində IX Beynəlxalq film festivalı keçirilib. Festival çərçivəsində Dünya Əqli Mülkiyyət Təşkilatı tərəfindən "Film və müəlliflik hüququ: imkanlar və çətinliklər" mövzusunda beynəlxalq forum da təşkil olunub.

Əqli Mülkiyyət Agentliyindən bildirilib ki, forumda agentliyin Beynəlxalq əlaqələr və informasiya şöbəsinin müdir müavini Elnur Məmmədli də iştirak edib.

Beynəlxalq forumda "Film və müəlliflik hüququ: hüquqi prinsiplərdən istehlakçılara qədər", "Film və mədəniyyət: filmlər mədəni müxtəlifliyin səfirləri kimi – siyasi yanaşmalar və strategiyalar", "Film və kreativ sənaye: film və televiziya sənayesinin çətinlikləri və imkanları", "Kreativ sənayelərin inkişafının təşviq edilməsi: ən yaxşı təcrübələr və biznes modellərinin yaradılması" və s. mövzular ətrafında çıxışlar və təqdimatlar olub. Həmçinin Pekin beynəlxalq film festivalı və beynəlxalq müəlliflik hüququ ticarət sərgisinə, o cümlədən "IQIYI Technology" və "Tencent Technology" şirkətlərinə səfərlər təşkil edilib.




Tədbirin əsas məqsədlərindən biri "Audiovizual ifalara dair Pekin müqaviləsi"nin hüquqi prinsipləri haqqında üzv dövlətlərin nümayəndələrinə daha çox məlumat vermək, rəqəmli şəbəkələrdə audiovizual ifaların qorunması üzrə yeni beynəlxalq normaların tətbiqinin bu sahədə çalışan şəxslərin hüquqlarının təşviq edilməsi və iqtisadi fayda əldə etmələrinin təbliğ edilməsi olub.

Qeyd edək ki, "Audiovizual ifalara dair Pekin müqaviləsi" 2012-ci il iyunun 24-də qəbul edilib. Müqavilənin qüvvəyə minməsi üçün 30 dövlət tərəfindən ratifikasiya edilməsi və ya qoşulması tələb olunur. Hazırda belə dövlətlərin sayı 26-dır. Pekin müqaviləsinin qüvvəyə minməsi ilə audiovizual ifaların qorunması sahəsində yeni beynəlxalq normaların tətbiqinə başlanılacaq.

# Mirzə Şəfi Vazehin 225 illiyinə həsr olunmuş konfrans

Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi və Azərbaycan Yazıçılar Birliyinin (AYB) Gəncə bölməsinin təşkilatçılığı ilə Mirzə Şəfi Vazehin ev-muzeyində mütəfəkkir şairin 225 illiyinə həsr olunmuş konfrans keçirilib.

Konfransda AYB Gəncə bölməsinin sədri, Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Xəzangül Hüseynova Mirzə Şəfi Vazehin həyat və yaradıcılığından, Alman-Azərbaycan Cəmiyyətinin sədri Çingiz Abdullayev çıxışında Mirzə Şəfi ilə alman şairi və tərcüməçisi Fridrix Bodenştedtin dostluq əlaqələrindən söhbət açıb. Bildirib ki, Almaniyada Bodenştedtin heykəli ucaldılıb və onun əlində tutduğu kitabda Mirzə Şəfi Vazehin adı yazılıb.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun şöbə müdiri Xanım Zahirova, Bakı Slavyan Universitetinin müəllimi Murad Muradov, AYB-nin üzvü, Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Sahib İbrahimli, Əməkdar jurnalist, yazıçı-dramaturq Nüsabə Əsəd Məmmədli, şair Zahir Şirani çıxış edərək Vazeh yaradıcılığının bənzərsizliyindən danışıblar.

# Arxiv idarələrinin əməkdaşlığı

Finlandiya Milli Arxiv İdarəsinin Rusiya və post-sovet ölkələri ilə əlaqələr şöbəsinin direktoru, Finlandiya tarixinə aid sənədlərin axtarışı və elektronlaşdırılması layihəsinin rəhbəri Dmitri Frolov Azərbaycan Milli Arxiv İdarəsində olub.



Qonaq Milli Arxiv İdarəsinin tabeliyində fəaliyyət göstərən Dövlət Tarix Arxivində Finlandiya tarixinə aid sənədlərlə tanış olub, həmçinin arxiv işi sahəsində mütəxəssis mübadiləsi proqramı üzrə fikir və mülahizələrini bildirib. D.Frolov Milli Arxiv İdarəsinin və Respublika Dövlət Arxivlərinin əməkdaşları üçün "Finlər Rusiya İmperiyasında – 1809-1917-ci illər" və "Keçmiş SSRİ ölkələrinin arxivlərində saxlanılan Finlandiya tarixinə aid sənədlərin aşkarlanması və rəqəmsallaşdırılması üzrə iş" mövzularında mühazirə oxuyub.

Qeyd edək ki, ötən ilin oktyabrında Azərbaycan və Finlandiyanın Milli Arxiv idarələri arasında əməkdaşlıq haqqında saziş imzalanıb.

# Həyat ondan gözəlliyi, istedadı və şöhrəti əsirgəməmişdi...

Milyonların sevimlisi, SSRİ-nin və Rusiya Federasiyasının Xalq artisti, istedadlı və gözəl aktrisa Elina Bıstritskaya aprelin 26-da vəfat edib.

Elina Bıstritskaya 4 aprel 1928-ci ildə Kiyevdə yəhudi ailəsində anadan olub. Atası Avraam Petroviç hərbi həkim, anası Esfir İsaakovna isə xəstəxanada aşpaz işləyirdi. Sonra atasının işi ilə əlaqədar ailələri Nejin şəhərinə köçür.

İkinci Dünya müharibəsi zamanı ailə Həştərxana evakuasiya olunur. Uşaqlıqdan tibb işçilərinin əhatəsində böyüyən Elina müharibə başlayanda tibb kursuna yazılır və yaralılara yardım göstərməyə başlayır. Müharibədən sonra Nejin Tibb Kollecində oxuyur. Sonra (1947) atasının tövsiyəsi ilə N.Qoqol adına Nejin Pedaqoji İnstitutunun Filologiya fakültəsinə daxil olur. Lakin bir ildən sonra tibb və filologiyadan daha çox incəsənətə olan istəyi onu Kiyev Dövlət Teatr İnstitutuna daxil olmağa sövq edir.

Elina Bıstritskaya Vilnüs Rus Dram Teatrında (1953-1956), A.S.Puşkin adına Moskva Dram Teatrında (1956-1958) və Malı Teatrda (1958-ci ildən) oynadığı bir-birindən gözəl rollarla tamaşaçıların sevgisini qazanır.



Aktrisanın kinoda debütü 1950-ci ildə "Dinc günlər" filmində də Yelena Alekseenko rolu olur. Bundan sonra bir neçə filmə çəkilsə də, 1955-ci ildə "Bitməmiş tale" filmində Yelizaveta Maksimovna rolu ilə məşhurlaşır. "Sovetskaya kultura" qəzetinin oxucular arasında keçirdiyi sorğuya görə, "İlin ən yaxşı aktrisası" adını qazanır.

1958-ci ildə "Sakit Don" filminə aktrisa axtaran rejissor Sergey Gerasimov Nonna Mordyukovanı çəkmək istəsə də, əsərin müəllifi Mixail Şoloxov Elina Bıstritskayanı məsləhət görür. Bu filmdəki Aksinya Astaxova roluna görə aktrisa hətta kökəlməyə belə razı olur. Film ekranlara çıxandan sonra geniş tamaşaçı rəğbəti, aktrisa isə böyük şöhrət qazanır. Bundan başqa, o, "Könüllülər" (1958), "Rus suveniri" (1960), "Nikolay Bauman" (1967) və s. filmlərə çəkilir.

Elina Bıstritskaya SSRİ Xarici Ticarət Nazirliyində şöbə müdiri Nikolay Kuzminski ilə ailə həyatı qurur. Cütlüyün uşaqları olmur. Bir müddət o, kinoya da çəkilmir. Uzun fasilədən sonra aktrisa 1990-cı ildə "Moskva polisi Kaminski" filmində İvanovna rolu ilə kinoya qayıdır. Həyat yoldaşı ilə 25 illik evlilikdən sonra 90-cı illərin əvvəlində ayrılırlar.

Aktrisanın istedadı məşhur rejissorumuz Rasim Ocaqovun da diqqətindən yayınmır. Rejissor onu 1991-ci ildə "Cinayətdən yeddi gün sonra" filmində Kira Aleksandrovna roluna çəkir.

Gözəl aktrisa mədəniyyətin və sənətin inkişafına böyük töhfələr verdiyinə görə keçmiş SSRİ-nin və Rusiyanın bir çox orden və mükafatlarına layiq görülüb.

Elina Bıstritskaya həmçinin 1980-ci ildən SSRİ Bədii Gimnastika Federasiyasının və SSRİ Teatr Xadimləri İttifaqının hərbi-vətənpərvərlik komissiyasına rəhbərlik edib. Bundan başqa, o, "Mədəniyyət və İncəsənətə Dəstək" Fondunun təsisçisi, "Ümid ulduzu altında görüşlər" kitabının müəllifi idi.

Gözəl və istedadlı aktrisa uzun və zəngin həyat yaşayaraq 92 yaşında dünyasını dəyişdi. Aprelin 29-da Moskvadakı Novodeviçye məzarlığında dəfn olundu.

**Səbinə ƏLİBALAQIZI**

# Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı müsabiqə elan olunub

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və Bakı Şəhər İcra Hakimiyyəti Hacı Zeynalabdin Tağıyevin heykəlinin hazırlanması ilə bağlı açıq heykəltəraşlıq müsabiqəsi elan edib.

Heykəlin "İçərişəhər" metro stansiyası yaxınlığındakı meydançada (İstiqlaliyyət küçəsi) ucaldılması nəzərdə tutulur.

Müsabiqədə landşaft memarlığı, bağça-park və şəhər heykəltəraşlığı sahələrində işləyən peşəkar heykəltəraşlar iştirak edə bilərlər.

Namizədlər müsabiqədə iştirak etmək üçün müəyyən olunmuş nümunə üzrə ərizə təqdim etməlidirlər. Müsabiqədə iştirak üçün yalnız müəllifliyi şəxsən namizədə aid olan eskizlər qəbul edilir.

Namizədlər tərəfindən göndərilmiş sənəd və materiallar geri qaytarılmır və onlar üçün ödəniş edilmir. Müəllif hüquqlarının pozulmasına (plagiata) görə məsuliyyəti müsabiqəyə müvafiq materialları göndərən şəxs daşıyır.

Müəllif ərizə və nəzərdən keçirilməsi üçün yaradıcılıq ideyasının ən azı iki eskizini (maketini) təqdim etməklə seçim mərhələsinin iştirakçısı olur. İştirak üçün ərizə və eskizləri (maketləri) Heydər Əliyev Mərkəzinə (Bakı şəhəri, Heydər Əliyev prospekti, 1) təqdim etmək və ya elektron poçt vasitəsilə contest@heydar-aliyev-foundation.org ünvanına göndərmək lazımdır.

Ərizə və eskizlər iyunun 30-dək qəbul olunur.

Müsabiqənin təşkilat komitəsi verilmiş ərizə və eskizlər arasından bir qalibi müəyyənləşdirir. Müsabiqə iştirakçılarının seçimi aşağıdakı meyarlar üzrə həyata keçirilir: mövzuya uyğunluq, müəllif mülahizəsinin və icra edilmə səviyyəsinin peşəkarlığı, təqdim edilmiş kompozisiyanın materialın emal texnologiyasına uyğunluğu.

Hər bir heykəl həm ayrılıqda bir müəllif, həm də həmmüəlliflər tərəfindən hazırlana bilər. Həmmüəlliflərin sayı 3 nəfərdən artıq olmamalıdır.

Heykəlin ucaldılması müəllifin və ya onun müvəkkili olan şəxsin bilavasitə müşahidəsi altında, müsabiqənin təşkilatçısı tərəfindən seçilmiş yerdə həyata keçiriləcəkdir.

Əlavə məlumat üçün (+99450) 295 02 09 telefon nömrəsi ilə əlaqə saxlamaq olar.

Müsabiqə barədə ətraflı məlumat Mədəniyyət Nazirliyinin saytının (mct.gov.az) "Elanlar" bölməsində.

# "Qaranlığa nur saçan zəka"



Milli Kitabxanada görkəmli oftalmoloq alim, Əməkdar elm xadimi, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əliyevanın anadan olmasının 96-cı ildönümü münasibətilə "Qaranlığa nur saçan zəka" adlı geniş kitab sərgisi təşkil edilib.

Akademik Zərifə xanım Əliyeva bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edərək, bu sahədə dəyərli elmi tədqiqatlar aparıb, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi məqalənin müəllifidir. Alimin zəngin elmi irsi, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Sərgidə oftalmoloq alimin Azərbaycan və xarici dillərdə olan əsərləri, haqqında yazılmış kitablar, fotoşəkillər nümayiş olunur.

# Beynəlxalq Muğam Mərkəzi Gürcüstanın mədəniyyət təşkilatları ilə əməkdaşlıq edəcək

Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində Beynəlxalq Muğam Mərkəzi ilə Gürcüstan Teatr Cəmiyyəti Yaradıcılıq İttifaqı və Dövlət Folklor Mərkəzi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

BMM-in direktoru, Xalq artisti Murad Hüseynov bildirib ki, mərkəz Azərbaycan milli mədəniyyətinin xaricdə təbliğinə və beynəlxalq əməkdaşlığa böyük önəm verir. Onun sözlərinə görə, memorandum Azərbaycan ilə Gürcüstan arasında mədəni əlaqələrin inkişafında mühüm rol oynayacaq. Sənədə əsasən, Azərbaycan və Gürcüstan musiqiçiləri qarşılıqlı olaraq hər iki ölkədə təşkil ediləcək festivallarda, mədəni tədbirlərdə iştirak edəcəklər.

Memorandumda, həmçinin hər iki ölkənin milli musiqi mədəniyyətinin təbliği məqsədilə qarşılıqlı səfərlər, sərgilər, konsertlər və digər mədəni tədbirlərin keçirilməsi də nəzərdə tutulub.

Gürcüstan Teatr Cəmiyyətinin sədri Giorgi Gegeçkori də memorandumun iki ölkənin zəngin mədəniyyətlərinin qarşılıqlı olaraq geniş ictimaiyyətə tanıdılması baxımından əhəmiyyət kəsb etdiyini bildirib.

Səfər zamanı həmçinin BMM ilə Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi arasında əməkdaşlığa dair memorandum imzalanıb. Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Leyla Əliyeva sənədin mədəni əlaqələrin daha da inkişaf etdirilməsinə töhfə verəcəyini deyib.

# Sənətkar sözü

## Tar sənətinin tədrisi, tar ifaçılığı və alətdə bəzi islahatların aparılması ilə bağlı narahatlıq doğuran məqamlar haqqında

Xalqımızın milli mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan muğam sənətimizin qorunub saxlanması, öyrənilməsi, dünyaya tanıdılması üçün Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı cəmiyyətdə böyük razılıq hissi ilə qarşılanır, beynəlxalq təşkilatlarda, dünyanın bir sıra ölkələrində geniş maraq doğurur.

Qürur hissi duyuruq ki, dünya musiqi alətləri içərisində ilk dəfə olaraq məhz Azərbaycan tarı UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib, tarımızın səsi dünya səhnələrindən gəlir, böyük orkestrlərdə səslənir.

Bu gün tar sənətinin tədrisində, alətin ifaçılığında və onunla bağlı bəzi islahatların aparılmasında yaranmış bir sıra məsələlər uzun illər ömrünü bu sahəyə həsr edən pedaqoq və peşəkar ifaçı kimi məni narahat etməyə bilməz. O səbəbdən ki, tarın tədrisinin bugünkü keyfiyyəti məni o qədər də qane etmir.

İlk səbəblərdən biri odur ki, tədris proqramında tar üçün orijinal əsərlər kifayət qədər deyildir. Bu istiqamətdə skripka, fortepiano üçün yazılmış əsərlərdən, eləcə də vokal əsərlərdən edilmiş köçürmələr əksəriyyət təşkil edir. Təbii ki, belə halda da qeyri-milli alətlər üçün yazılmış musiqi əsərləri tarı milli dildə, özünəməxsusluqla danışdıra, səsləndirə bilmir. Konsertdə ifa etməyə, eləcə də dərs keçməyə tar üçün orijinal əsərlər barmaqla sayılan qədərdir. XX əsrdən sonra peşəkar bəstəkarlarımız tərəfindən böyük həcmli əsərlər konsert, rapsodiya, fantaziya, süita, oratoriya, kiçik həcmli pyeslər yazılmayıb və bu, tar ifaçılığı üçün ciddi problemdir.

İkinci problem tarın formasına, kökünə, açarına yersiz müdaxilələrdən ibarətdir. Elə başa düşülməsin ki, mən yeniliyin tərəfdarı deyiləm. Mən o yeniliyin tərəfdarıyam ki, o, ənənə üzərində qurulsun, onu məhv etməsin. Tarın daimi ənənəvi kökü var və bu kök alətin fiziki-akustik məzmunu və intonasiyası ilə şərtlənir. Ənənəvi kök tarın və muğamların boyuna hesablanıb və imkan verir ki, hər bir muğam öz tarixi kökündə çalınsın, oxunsun.



Yeri gəlmişkən, burada bir məqama toxunmaq vacibdir: bəzi xanəndələr (təəssüf ki, bu qarşısıalınmaz çox böyük bir bəladır!) ifa zamanı tarın mövcud pərdələrindən kənara çıxaraq yeri gəldi-gəlmədi İran, ərəb və türk oxuyanlarına məxsus boğazlar işlədir, yad xallar, zəngulələr vurur, dinləyicilərin zövqünü korlayırlar. Ali musiqi təhsili almış bir çox instrumental ifaçılar isə yuxarıda göstərdiyimiz və milli musiqimizə yabançı olan ifalardan əsasən özəl televiziya kanallarında gen-bol istifadə edirlər.

Tarın ənənəvi kökü azərbaycanlıların musiqi təfəkkürünə uyğun qurulub. Bəzi dırnaqarası tarzənlər tarın kökünə, açar sisteminə, formasına qarşı əllaməlik sərgiləyir, tarın kəllə hissəsindəki taxta aşıqlardan imtina edərək onları vint qurğular ilə əvəz edir, "yeni çalğı" üsulları "yaradır", tarın qolunu genişləndirir, əsassız olaraq alətin diapazonunu 2.5 oktavadan 4 oktavaya "yüksəldir", tarı ayaq üstə çalır, bu aləti skripka, violonçellə müqayisə etməkdən çəkinmir, onun kaman açarında çalınmasına səy göstərirlər. Onların tara "Qərb donu" geyindirmələri və forma modifikasiyasına uymaları zərərli nəticələrə gətirib çıxarır.

Bunların hamısı əbəs cəhddir! Bu "mütəxəssislər" unudurlar ki, tarı Azərbaycan mədəniyyətinin milli vüqarına çevirən ustad sənətkarların heç birinin tarın nə formasından, nə kökündən, nə də açarından gileyi olmayıb. Əgər lazım olsaydı, onlar da islahatlar aparardılar, halbuki buna mənəvi haqları da çatıb, ustalıqları da. Ən mükəmməl tar Mirzə Sadığın tarıdır, müasir tardır.

Bəli, tar dünyanın ən mükəmməl alətlərindəndir, texniki-bədii imkanlarına görə heç də skripka və violonçeldən geri qalmır. Xalq çalğı alətlərinin ən mükəmməl açar sistemini isə dahi Üzeyir bəy işləyib. O, metso-soprano açarını elmi uzaqgörənliklə seçib və bu açar praktik cəhətdən özünü tam mənası ilə doğruldur. Tarın xarici görünüşü, formasının özü elə mükəmməl və gözəldir ki, onun milli məzmununa tam uyğundur.

Növbəti, digər bir problem isə onun ifaçılığında olan əsas şərtlərin pozulmasıdır. Sənətkar olmaq istəyən gərək əvvəlcə peşəkar olsun. Yəni böyük sənətin bir yolu var, o da peşəkarlıqdır, professionallıqdır. Tar ifaçısı olmaq istəyən adam dərk etməlidir ki, çalğı aləti xalqın mənəvi simasıdır. O, tarı fanatikcəsinə sevməli, yalnız zəhmətkeş, peşəkar yox, həm də qeyrətli vətəndaş olmalıdır! Tarzəndə bu keyfiyyətlər yoxdursa, təbii ki, o, tarı sevmədən, istənilən musiqi aləti, hətta balalayka, mandolina, gitara kimi ifa edəcəkdir. Təəssüf ki, bu, hazırda tar ifaçılığında geniş yayılıbdır.

Yaxşı olardı ki, xalq çalğı alətlərini tədris edən qabaqcıl musiqi müəllimlərinin tez-tez elmi-metodik konfransları keçiriləydi, yaranmış böhranlar müzakirə olunaydı, real əməli təkliflər veriləydi. Şəxsən mən, muğamların klassik not əsərlərinin metodik cəhətdən dərin, hərtərəfli əsaslandırılmış tədrisinin tərəfdarıyam. Solo muğam ifaçılığı, trio ifaçılığı bir fənn kimi ali musiqi tədrisi ocaqlarında mütləq keçilməlidir.

Yuxarıda dediklərim mənim bir pedaqoq və tar ifaçısı kimi tarın gələcəyi üçün keçirdiyim narahatlığımdır.

**Ramiz QULİYEV**
**Xalq artisti, Dövlət mükafatı laureatı, professor**

# UNESCO-nun Beynəlxalq Mədəni Müxtəliflik Fonduna layihələrin qəbulu

UNESCO-nun Beynəlxalq Mədəni Müxtəliflik Fondu (IFCD) layihələrin qəbulu üzrə növbəti – 10-cu çağırışını edib.

Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqi haqqında UNESCO-nun 2005-ci il Konvensiyasına uyğun olaraq yaradılan Beynəlxalq Mədəni Müxtəliflik Fondu inkişaf etməkdə olan ölkələrdə dinamik mədəni sektorun inkişafına təkan verərək mədəni özünüifadə müxtəlifliyinin qorunması siyasətinə xidmət edən layihələri maliyyələşdirir.

Mövcud qaydalara əsasən, onlayn müraciətlərin ilkin seçimi mədəniyyət nazirlikləri tərəfindən həyata keçirilməlidir.

Layihələr həm dövlət qurumları, həm də qeyri-hökumət təşkilatları tərəfindən təqdim oluna bilər. Layihələrin onlayn təqdimatı üçün son tarixin 13 iyun 2019-cu il olduğu nəzərə alınaraq, maraqlı tərəflər layihələri 31 may tarixinə qədər Mədəniyyət Nazirliyinə (mct@mct.gov.az; subject: IFCD Layihə müraciəti) təqdim edə bilərlər. Yalnız Mədəniyyət Nazirliyi tərəfindən seçilmiş layihələrə növbəti mərhələdə UNESCO Katibliyində baxılacaqdır.

Layihə ilə bağlı ətraflı məlumatı https://en.unesco.org/creativity/calls/unesco-launches-its-10th-ifcd-call-applications linkinə daxil olmaqla və ya (+99412) 493 02 33 nömrəsi ilə əlaqə saxlamaqla almaq olar.

# Xatirə təqvimi — 1-3 may

## Azərbaycan

**1 may 1901** – Aşıq Bəhmən Göyçəli (Bəhmən İbrahim oğlu Qarayev; 1901-1976) anadan olub.

**1 may 1910** – Xalq artisti, müğənni Sürəyya Sədrəddin qızı Qacar (1910-1992) Şuşada doğulub. Operalarda Leyli ("Leyli və Məcnun", "Aşıq Qərib" və s.) əsas partiyalarda çıxış edib.

**1 may 1934** – Yazıçı, dramaturq İsi Abbas oğlu Məlikzadə (1934 – 12.5. 1995) Ağcabədi rayonunda anadan olub. Əsərləri və ssenariləri əsasında filmlər ("Qoca palıdın nağılı", "Kişi sözü", "Gümüşgöl əfsanəsi", "Küçələrə su səpmişəm"), teletamaşa ("Qatarda") çəkilib.

**1 may 1936** – Tanınmış dilçi alim, akademik Tofiq İsmayıl oğlu Hacıyev (1936 -27.11.2015) Cəbrayıl rayonunun Soltanlı kəndində doğulub.

**1 may 1947** – Bəstəkar, Əməkdar incəsənət xadimi Rauf Tofiq oğlu Əliyev; 1947 – 14.6.2017) Şuşada anadan olub. Simfonik, instrumental və kamera əsərləri, filmlərə ("Yalan", "Fəryad" və s.) musiqi yazıb.

**1 may 1950** – Yazıçı, dramaturq Məmməd Səid Ordubadi (24.3.1872 – 1950) vəfat edib. "Dumanlı Təbriz", "Qılınc və qələm", "Döyüşən şəhər", "Gizli Bakı" romanları ilə Azərbaycan ədəbiyyatında tarixi roman janrının banisi sayılır.

**2 may 1920** – Əməkdar artist Ətayə Qulam qızı Əliyeva (1920-6.4.1995) Aşqabadda anadan olub. 1934-cü ildə Bakıya gələrək Teatr Texnikumuna daxil olub. İrəvan, Gəncə teatrlarında, Akademik Dram Teatrında çıxış edib. Filmləri: "Onu bağışlamaq olarmı?", "Bizim küçə", "Uşaqlığın son gecəsi" və s.

**2 may 1927** – Azərbaycanın ilk peşəkar hərbi dirijoru, sənətşünaslıq namizədi Niyazi Əhməd oğlu Kərimov (1927-2003) Qəbələ şəhərində anadan olub.

**2 may 1929** – Dilçi və ədəbiyyatşünas, Əməkdar elm xadimi Yusif Mirəhməd oğlu Seyidov (1929-2013) Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində anadan olub.

**2 may 1939** – Xalq artisti, sənətşünaslıq doktoru, professor Ramiz Fərzulla oğlu Zöhrabov (1939 – 24.4.2017) Bakıda doğulub. Bəstəkarlar İttifaqının katibi olub.

**3 may 1857** – Yazıçı, teatrşünas Əsgər ağa Haqverdi bəy oğlu Gorani (Adıgözəlov; 1857-1910) Goranboy rayonunun Goran-Boyəhmədli kəndində doğulub. "Qara yel" romanının müəllifidir.

**3 may 1938** – Xalq artisti Kamal Ağahüseyn oğlu Xudaverdiyev (1938 – 23.4.2008) Bakıda doğulub. Dövlət Akademik Dram Teatrında çalışıb. Televiziya tamaşalarında, "İstintaq davam edir", "Nəsimi" və s. filmlərdə çəkilib.

## Dünya

**1 may 1881** – Fransız filosofu, antropoloq və paleontoloq Teyar de Şarden (Pierre Teilhard de Chardin; 1881-1955) anadan olub. Əsərləri: "Bəşəri mühit", "İnsan fenomeni".

**1 may 1924** – Gürcü aktyoru və rejissoru David Abaşidze (1924-1990) anadan olub. Filmləri: "Qəm yemə", "Pirosmani", "Veri məhəlləsinin melodiyası".

**2 may 1772** – Alman şairi və filosofu Novalis (əsl adı Georg Friedrich Philipp Freiherr von Hardenberg; 1772-1801) anadan olub.

**2 may 1903** – Özbək kinosunun yaradıcılarından biri, SSRİ Xalq artisti Kamil Yarmatov (1903-1959) anadan olub. "Əlişir Nəvai", "İbn Sina" filmlərinə quruluş verib.

**2 may 1911** – Tacikistanın Xalq şairi Mirzo Tursunzadə (1911-1977) anadan olub. Əsərlərini tacik və rus dillərində yazıb.

**3 may 1469** – İtalyan filosofu, yazıçı və tarixçi Nikkolo Makiavelli (Niccolò Machiavelli; 1469-1527) Florensiyada doğulub. Siyasət və əxlaq mövzusunda "Hökmdar" əsərini, "Florensiya tarixi"ni yazıb.

**3 may 1910** – Rus şairəsi, yazıçı Olqa Berqols (1910-1975) anadan olub. Böyük Vətən müharibəsində blokadada qalan Leninqradda fədakar yaradıcılıqla məşğul olub, "Leninqrad poeması"nı yazıb.

**Hazırladı: Vüqar ORXAN**

# AFİŞA — 1-3 may

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 2 may | Ç.Aytmatov - "Manqurt" | 19.00 |
| 3 may | C.Məmmədquluzadə - "Ölülər" | 19.00 |

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 3 may | R.Ağababayev, A.Sent Ekzüperi - "Balaca şahzadə" | 19.00 |

**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 3 may | P.Qladilin – "Afina axşamları" | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 1 may | Y.Entin, V.Livanov - "Bremen musiqiçiləri" | 10.00, 12.00, 14.00 |
| 2 may | P.Culliford - "Şirinlər" | 12.00 14.00 |
| 3 may | Y.Şvarts - "Qırmızıpapaq" | |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 1 may | Türk xalq nağılı - "Keloğlan" | 12.00, 14.00, 16.00 |
| | Rus xalq nağılı - "Qoğal" (rus dilində) | 18.00 |
| 2 may | Rus xalq nağılı - "Maşa və Ayı" | 12.00, 14.00, 16.00 |
| | "Maşa və Ayı" (rus dilində) | 18.00 |
| 3 may | Rus xalq nağılı - "Turp" | 12.00, 14.00, 16.00 |
| | Azərbaycan xalq nağılı - "Şəngülüm və Məngülüm" | 18.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 1 may | "Gənclərə dəstək" layihəsi çərçivəsində konsert<br>Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri<br>Dirijor Ağaverdi Paşayev, solist Fəxri Kazım Nicat (tenor) | 19.00 |
| 3 may | Fortepiano musiqisi axşamı<br>Solist Yeva Poblotska (piano) | 19.00 |

**Filarmoniyanın Kamera və orqan musiqisi zalı (28 May küç. 41)**

| | | |
|---|---|---|
| 3 may | H.Sarabski adına 7 nömrəli Musiqi məktəbi<br>Q.Qarayev adına Dövlət Kamera Orkestri<br>Dirijor Fəxrəddin Kərimov | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 1 may | Azərbaycan Buktreyler Festivalı - 2019 | 19.00 |
| 2 may | Muğam Televiziya Müsabiqəsi - 2019 | 21.00 |
| 3 may | Rəvanə Qurbanovanın solo muğam konserti | 19.00 |

№32 (1617)
1 may 2019
www.medeniyyet.az

# Cahana sığmayan dahi

## İmadəddin Nəsiminin 650 illik yubileyi müxtəlif ölkələrdə qeyd edilir

### Qazaxıstanda "Nəsimi ili"nin açılışı

Beynəlxalq Türk Akademiyasının təşəbbüsü və təşkilatçılığı ilə Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində "Beynəlxalq Avrasiya Kitab Sərgisi 2019" çərçivəsində "Nəsimi ili"nin açılışı olub. Mərasimdə Azərbaycan, Qazaxıstan, Türkiyə və Qırğızıstanın mədəniyyət və elm xadimləri iştirak edib.

Akademiyanın prezidenti, professor Darxan Kıdıralı tədbirdə çıxış edərək bildirib ki, böyük mütəfəkkir İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi şərəfinə 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi bütün türk dünyasında böyük məmnunluqla qarşılanıb. Vurğulanıb ki, Nəsimi öz yaradıcılığının miqyası ilə yalnız Azərbaycan xalqına məxsus olmaqdan çıxıb və bəşəriyyətin böyük dəyərinə çevrilib. Bütün bunları nəzərə alaraq Beynəlxalq Türk Akademiyası Qazaxıstanda "Nəsimi ili"nin açılışını etməklə yanaşı, onun seçilmiş şeirlərini qazax dilində nəşr edib. D.Kıdıralı bildirib ki, Nəsiminin əsərləri ilk dəfədir qazax dilinə çevrilib. Həmçinin qazax dilində çap olunan "Azərbaycan ədəbiyyatı antologiyası"nda da şairin yaradıcılığına yer verilib. Bu, qazax oxucularının böyük söz ustadının mənəvi irsini mənimsəməsi baxımından unikal imkan olacaq.



Ölkəmizin Qazaxıstandakı səfiri Rəşad Məmmədov Nəsiminin yaradıcılığından söz açaraq şairin 600 illik yubileyinin 1973-cü ildə Azərbaycanın rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə UNESCO səviyyəsində qeyd olunduğunu xatırladıb. Diplomat bildirib ki, Beynəlxalq Türk Akademiyasının təşəbbüsü ilə bu il mayın 15-də Parisdə UNESCO ilə birlikdə dünyanın müxtəlif ölkələrindən alimlərin iştirakı ilə təşkil olunacaq beynəlxalq forumda bakı şairin anadan olmasının 650 illik yubileyi bu mötəbər beynəlxalq təşkilatla birlikdə qeyd ediləcək.

Milli Məclisin deputatı Musa Quliyev ədəbiyyat və mədəniyyətin xalqlarımızı yaxınlaşdırdığını, bunun üçün də qazax ədiblərinin əsərlərinin də Azərbaycan dilinə çevrilməsinin vacib olduğunu qeyd edib.

Qazaxıstanın Avrasiya Milli Universitetinin professoru, tərcüməçi, türkoloq Amantay Şarip isə bildirib ki, Nəsimi öz əsərlərində milli dilin zənginliyinə baş vuraraq, Orta əsrlərin mürəkkəb ədəbi mühitində türk dilini təzyiqlərdən qoruyub və özündən sonra Xətai, Füzuli, Vaqif kimi böyük şairlərin söz meydanında daha çox parlamasına zəmin yaradıb.

Tədbirdə Beynəlxalq Türk Akademiyası tərəfindən qazax dilində çap olunan "Azərbaycan ədəbiyyatı antologiyası" və Nəsiminin şeirlərindən ibarət "Mən aləmə sığmazam" kitabları təqdim olunub, Azərbaycan, qazax və rus dillərində Nəsiminin şeirlərindən parçalar səsləndirilib.



### Minskdə yubiley tədbiri

Azərbaycanın Belarusdakı səfirliyi tərəfindən Minskdəki "Dostluq evi"ndə Nəsiminin 650 illik yubileyinə həsr olunmuş bədii-musiqili tədbir keçirilib. Tədbirdə Belarusda akkreditə olunmuş Tacikistan, Türkmənistan, Qırğızıstan, Özbəkistan, Rumıniya, Liviya, Fələstin və Moldova səfirliklərinin nümayəndələri, Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin, Belarus Dövlət Universitetinin müəllim və tələbələri iştirak ediblər.

Belarus Mədəniyyət Nazirliyinin Beynəlxalq əlaqələr və informasiya təminatı idarəsinin rəisi Viktoriya Ratabılskaya yubiley tədbirinin iki ölkə arasında mövcud olan mədəni və tarixi əlaqələrin daha da gücləndirilməsinə və hər iki xalqın daha da yaxınlaşmasına xidmət etdiyini söyləyib. O, Nəsiminin yaradıcılığının bu gün də insanların mənəvi-əxlaqi cəhətdən kamilləşməsinə xidmət etdiyini bildirib.

Səfir Lətif Qəndilov qeyd edib ki, keçən il Belarusda Hüseyn Cavidin 135 illiyinin, bu il isə Nəsiminin 650 illik yubileyinin keçirilməsi iki ölkə arasında, bütün sahələrdə olduğu kimi, mədəni əlaqələrin də inkişaf etdiyinin və xalqlarımızın bir-birinin mədəniyyətinə böyük maraq göstərməsinin əyani sübutudur. Diplomat müasir dünyada İ.Nəsiminin bir çox ideyalarının aktual olduğunu bir daha diqqətə çatdırıb.

Tədbirdə Belarus Milli Elmlər Akademiyası Ədəbiyyatşünaslıq İnstitutunun kiçik elmi işçisi Tatyana Borisyuk və Belarus Dövlət Universitetinin müəllimi Valeriya Leşenko İ.Nəsiminin həyat və yaradıcılığına dair məruzə ilə çıxış ediblər.

Tələbələr tərəfindən Nəsiminin şeirlərindən parçalar oxunub və xüsusilə də "Sığmazam" qəzəli böyük maraq doğurub. Azərbaycan rəqsləri ifa olunub, "Sarı gəlin", "Getmə, getmə gəl" mahnıları səsləndirilib və alqışlarla qarşılanıb.

### Nəsiminin söz aləmi fin dilində

Helsinki şəhərində də İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş ədəbi-bədii konfrans keçirilib. Tədbir Finlandiyada fəaliyyət göstərən diaspor təşkilatlarının birgə layihəsi olaraq – Finlandiya Azərbaycan Assosiasiyasının sədri Vasif Muradlının təşəbbüsü, Azərbaycanlı Qadınlar Cəmiyyətinin, Finlandiya Azərbaycan Gənclər Birliyinin birgə təşkilatçılığı ilə reallaşıb. Konfransda Finlandiya Xarici İşlər Nazirliyinin Qafqaz ölkələri üzrə nümayəndəsi Max Hatvala, digər rəsmilər iştirak ediblər.



Məlumat verilib ki, Finlandiyada Avropa Ədəbi Tərcüməçilər İttifaqının (SİETL) üzvü Tahirə Cəfərovanın təşəbbüsü və redaktorluğu ilə "Gövhəri-laməkan mənəm" adlı Azərbaycan poeziya antologiyası fin dilinə tərcümə olunaraq çap edilib. Antologiyada Əfzələddin Xaqanidən dövrümüzə qədər Azərbaycan şairlərinin yaradıcılığı əksini tapıb. Topluya daxil edilən poetik əsərləri Finlandiyanın tanınmış şairləri – "Finlandiya" mükafatı laureatı Xannu Myakelya, Ömər Xəyyamın əsərlərinin tərcüməçisi kimi tanınan Leyevu Lehto, həmçinin Yukka Malnilen, Timo Malmi və Tahirə Cəfərova tərcümə ediblər.

# Formula 1 Azərbaycan Qran-prisində himnimizin möhtəşəm təqdimatı

Aprelin 28-də Bakıda Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin – SOCAR Azərbaycan Qran-prisinin əsas avtomobil yarışı azarkeşlərinə həyəcan dolu anlar yaşatmaqla yanaşı, açılış mərasimində Azərbaycanın Dövlət himninin möhtəşəm səslənişi ilə də yadda qalıb.



Dövlət himni tanınmış bəstəkar Azad Vəliyevin yeni aranjimanında səsləndirilib. Himni əməkdar artistlər Bəyimxanım Vəliyeva və Nurlan Növrəsli birlikdə, müvafiq olaraq, muğam və klassik üslublarda ifa ediblər. Onları əməkdar artistlər – tarda Şəhriyar İmanov, nağarada Kamran Kərimov, violonçeldə Emin Qaliyev və bəm nağarada Hüsaməddin Əzizov müşayiət ediblər. İfaçılar milli və klassik üslublara aid geyimlərdə meydana çıxıblar.

Formula 1 Azərbaycan Qran-prisinin qalibi isə "Mercedes" komandasının finlandiyalı pilotu Valtteri Bottas olub. O, 51 dövrəni 1 saat 31 dəqiqə 52,942 saniyəyə başa vurub. Onun komanda yoldaşı Luis Hamilton ikinci, "Ferrari" komandasının sürücüsü Sebastian Fettel üçüncü olub.

Xatırladaq ki, Formula 1 yarışı Azərbaycanda artıq dördüncü dəfədir gerçəkləşib. 2016-cı ildə keçirilən birinci yarışda "Mercedes" komandasının almaniyalı pilotu Niko Rosberq, 2017-ci ildə "Red Bull Racing" komandasından avstraliyalı Daniel Rikkardo, ötənilki Qran-pridə isə "Mercedes" komandasının britaniyalı sürücüsü Luis Hamilton qələbə qazanmışdı.




# Ankarada "Aşıq Veysəl ili"nin açılışı keçirilib

Xəbər verdiyimiz kimi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY 2019-cu ili türk dünyasının görkəmli söz ustadları – böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyi və Türkiyənin məşhur el sənətkarı Aşıq Veysəlin anadan olmasının 125-ci ildönümü şərəfinə xatirə ili elan edib.

Mart ayında Ankarada TÜRKSOY-un "Nəsimi ili"nin açılışı olmuşdu. Aprelin 28-də Ankara şəhərində, Prezident Administrasiyasının Simfonik Orkestrinin konsert salonunda Türkiyənin görkəmli el sənətkarı Aşıq Veysəlin (1894-1973) xatirə ilinin açılış mərasimi keçirildi. Mərasim çərçivəsində "Rənglərdəki işıq - Aşıq Veysəl" adlı rəsm sərgisi də təşkil olunmuşdu.

Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin, TÜRKSOY-un və "TRT Avaz"ın birgə təşkilatçılığı ilə keçirilən mərasimdə rəsmilər, türk dünyasının tanınmış simaları, elm və mədəniyyət xadimləri, ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

TÜRKSOY-un baş katibi Düsen Kaseinov tədbiri açaraq Aşıq Veysəlin həyat yolundan danışdı. Vurğuladı ki, el sənətkarı və söz ustadı "Uzun ince bir yoldayım, gidiyorum gündüz, gece" deyərək yaradıcılığı ilə gənc nəsillərə bir yol xəritəsi qeyd edib. Bildirdi ki, 2019-cu ildə təşkil olunacaq tədbirlər çərçivəsində Aşıq Veysəl şəxsiyyəti türk dünyasına daha geniş tanıdılacaq.

Daha sonra bədii proqram təqdim edildi. Türk dünyasını təmsil edən ayrı-ayrı ölkələrdən gələn musiqi qruplarının rəngarəng çıxışları maraqla qarşılandı. Proqramda Azərbaycandan Vüqar İsmayılov və musiqi qrupu, həmçinin tanınmış vokalçı, Əməkdar artist İlham Nəzərov çıxış etdi. Konsertdə Aşıq Veysəlin şeirlərinə bəstələnmiş mahnılar ilk dəfə səsləndirildi.

Konsertdə, həmçinin Azərbaycanın Xalq artisti Elnarə Kərimovanın dirijorluğu ilə TRT Ankara radiosunun kamera xoru çıxış etdi.

**MEHPARƏ**

# "Məhəbbətim mənim, kədərim mənim"

## Moskvada Əjdər İbrahimova həsr edilmiş yubiley axşamı

Rusiya paytaxtının Mərkəzi Ədiblər Evindəki Yazıçılar Klubunda görkəmli azərbaycanlı kinorejissor, SSRİ Xalq artisti Əjdər İbrahimovun (1919-1993) 100 illiyinə həsr olunmuş "Məhəbbətim mənim, kədərim mənim" adlı yubiley axşamı keçirilib.



Rusiya Kinematoqrafçılar İttifaqının, Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin, Azərbaycan, Türkiyə, Vyetnamın Moskvadakı səfirliklərinin təşkilatçılığı ilə keçirilən tədbiri kinoşünas Aleksandr Şpagin aparıb.

Yubiley axşamını açan Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Əjdər İbrahimovla bağlı xatirələrini bölüşüb. Bildirib ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyev Əjdər İbrahimova böyük hörmətlə yanaşırdı, ona çox dəyər verirdi. 1993-cü ildə Əjdər İbrahimovun Moskvada dünyasını dəyişməsindən sonra Heydər Əliyevin göstərişi ilə o, Bakıda – Fəxri xiyabanda dəfn edildi.

P.Bülbüloğlu kinorejissorun yaradıcı gənclərə xüsusi münasibətindən də bəhs edib: "İstər səhnəyə yeni çıxan aktyor və aktrisa, istərsə də bəstəkar və ya rəssam. O, dinləməyi və qulaq asdıqlarından ən yaxşılarını seçməyi bacarırdı. Yəqin ki, ona görə onun ekran əsərlərinin əsas qayəsi ətrafdakı hər şeyə insani münasibətdir, onun filmlərinin ana xətti məhz budur. Əjdər İbrahimov dünya şöhrətli bəstəkarlarla işləyib. Mənim müəllimim, dünya şöhrətli bəstəkar Qara Qarayev, böyük bəstəkar Arif Məlikov onun filmlərinə musiqi bəstələyiblər".



Diplomat rejissorun həyat yoldaşı, jurnalist və ssenarist Marqarita Maleyevanın Ə.İbrahimovun xatirəsinin və irsinin qorunub saxlanılmasında müstəsna rolunu qeyd edib.

Azərbaycan Mədəniyyət Nazirliyinin Kinematoqrafiya şöbəsinin müdiri Cahangir Məmmədov nazir Əbülfəs Qarayevin məktubunu oxuyub. Məktubda qeyd olunub ki, Əjdər İbrahimov Böyük Vətən müharibəsində cəbhədən qayıtdıqdan sonra dərhal Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutunda təhsil alan kinorejissorların görkəmli nəslinin nümayəndəsidir. Karyerasına Azərbaycanda başlayan rejissor 1962-ci ildən Moskvada fəaliyyət göstərib. Postsovet məkanında onun gözəl filmlərini xatırlayan kino tamaşaçıları az deyil. "Əjdər İbrahimov şəxsiyyəti həm də ona görə bizim üçün əzizdir ki, onun timsalında Rusiya-Azərbaycan mədəni əlaqələrini möhkəmləndirən parlaq nümunəni görürük", - deyə məktubda vurğulanır.

Yubiley axşamı Emil Qədirov, Anastasiya Çernovolos və digər müğənnilərin çıxışları ilə davam edib.

Əjdər İbrahimov "26 Bakı komissarı", "Məhəbbətim mənim, kədərim mənim", "Ürək əhvalatları", "Narahat adam", "Ulduzlar sönmür" və başqa ekran əsərlərini lentə alıb. O, SSRİ hökumətinin tapşırığı ilə Vyetnamda bədii kinematoqraf və kino məktəbi (hazırda Hanoy Kinematoqrafiya İnstitutu) yaradıb. Rejissor özünün vyetnamlı tələbələri ilə 1959-1962-ci illərdə beynəlxalq kinofestivallarda mükafatlara layiq görülmüş üç bədii filmi lentə alıb.

Əjdər İbrahimov böyük türk şairi və dramaturqu Nazim Hikmətin əsərləri əsasında dörd bədii film lentə almış yeganə kinorejissordur. İndi də Türkiyədə şairin xatirəsinə həsr olunmuş tədbirlərdə, Türkiyədə Rusiya mədəniyyəti günlərində onun "Bir məhəllədən iki nəfər" və ilk sovet-türk filmi "Məhəbbətim mənim, kədərim mənim" ekran əsərləri nümayiş etdirilir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5245
**Sifariş:** 1502
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.